23 oktyabr 2024 №78 (2143) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri Qəzet 1991-ci ilin yanvarından çıxır

## Muğam Mərkəzinə xüsusi status verilib

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 22 oktyabr 2024-cü il tarixli qərarı ilə Mədəniyyət Nazirliyinin tabeliyində fəaliyyət göstərən Bakıdakı Muğam Mərkəzinə "beynəlxalq" statusu verilib.

*səh. 2*

## Mədəniyyət naziri Milli Gənc Tamaşaçılar Teatrının kollektivi ilə görüşüb

Nazir Adil Kərimli teatrın texniki və digər məsələlərinin diqqətdə olduğunu, səslənən problemlərin ardıcıl həlli istiqamətində işlər aparılacağını vurğulayıb. O, həmçinin nazirliyin teatr sənətinin inkişafına yönəlmiş təşəbbüslərə, yaradıcı təkliflərə dəstək verməyə hazır olduğunu bildirib.

*səh. 3*

## Zamanını aşan miras – Muzey Mərkəzində sərgi

Oktyabrın 22-də Muzey Mərkəzinin sərgi qalereyasında "Zamanını aşan miras – İpək Yolu" adlı beynəlxalq sərgi açılıb.



Sərgi Türkiyənin "İnsan və Mədəniyyət Hərəkatı" (İMH) Sənət Birliyinin təşkilatçılığı, qardaş ölkənin Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycandakı səfirliyi, Konya Böyükşəhər Bələdiyyəsi, Türk Dünyası Bələdiyyələr Birliyi, İstanbul Ticarət Universiteti, Xəzər Universiteti, Muzey Mərkəzi və Bakı Rəsm Qalereyasının dəstəyi ilə təşkil olunub.

Əvvəlcə iştirakçılar layihədən bəhs edən videoçarxa baxıblar. Videoçarxda İpək Yolunun keçdiyi ərazilərdə inkişaf edən mədəniyyət və sənət dünyasının bu gün də yaşadıldığı bildirilib.

*davamı səh. 2-də*

## Bakı Caz Festivalı davam edir



Xəbər verdiyimiz kimi, 17 –27 oktyabr tarixlərində paytaxtımızda növbəti caz festivalı keçirilir. XIX Bakı Caz Festivalının açılışı "Jolly Joker" məkanında olub. İlk konsertdə Braziliyadan cazmen, bas-gitaraçı Munir Hossn və xanım ifaçılardan ibarət "ELAS" qrupu (Mayte Gonzales – piano, Mariana Pilatos – fleyta, Yissi Qarsiya və Mişel Velkons – hər ikisi zərb alətləri) səhnəyə çıxıb.

Açılışda festivalın bədii rəhbəri Rain Sultanov və Braziliyanın Azərbaycandakı səfiri Manuel Montenegro çıxış ediblər. Munir Hossn Azərbaycanda caz festivalında iştirak etməkdən şad olduğunu bildirib.

Oktyabrın 20-də eyni məkanda Rain Sultanov (saksofon) festivalın qonaqları – trubaçı Karlos Sarduy (Kuba), bas gitaraçı Linli Mart (Fransa) və zərb alətləri ifaçısı Con Şmidt (Fransa) ilə birlikdə "Syndicate" layihəsini təqdim edib.

11 ölkədən ifaçı və kollektivləri bir araya gətirən festivalın konsert və təqdimatları "Jolly Joker"də, həmçinin Beynəlxalq Muğam Mərkəzi, Milli Konservatoriya, ADA Universiteti və Caz-klubda keçirilir.

## Gənc bəstəkar Sankt-Peterburqda öz əsərini səsləndirib

Azərbaycanlı musiqiçilər oktyabrın 19-da Sankt-Peterburq şəhərində Rusiya Dövlət Kapellasının konsertində çıxış ediblər.



Konsertdə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının baş dirijoru və musiqi rəhbəri Əyyub Quliyevin dirijorluğu ilə K.Sen-Sansın "Samson və Dalila" operasından "Vaxkanaliya", N.A.Rimski-Korsakovun "Şəhrizad" simfonik süitası, eləcə də görkəmli Azərbaycan bəstəkarı Soltan Hacıbəyovun "Karvan" simfonik lövhəsi və gənc bəstəkar və pianoçu Tamilla Əhədovanın "Fortepiano və orkestr üçün konsert" əsəri ifa olunub.

Görkəmli bəstəkar, keçmiş SSRİ-nin Xalq artisti Arif Məlikovun yetirməsi olan T.Əhədovanın öz əsərini yüksək səviyyədə ifa etməsi tamaşaçılar tərəfindən böyük rəğbətlə qarşılanıb.

Azərbaycan musiqisinin də beynəlxalq aləmdə tanıdılması və təbliğinə töhfə olan konsert sənətsevərlərin ruhunu oxşayıb.

# "Arşın mal alan" yenidən Ankara səhnəsində

Dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin "Arşın mal alan" operettası yenidən Türkiyə səhnəsinə çıxıb.



Türkiyə Cümhuriyyəti Mədəniyyət və Turizm Nazirliyi Dövlət Opera və Balet Teatrları Baş İdarəsinin məlumatına görə, dünya miqyasında ən çox oynanılan operettalardan olan "Arşın mal alan" Ankara Dövlət Opera və Balet Teatrının repertuarına qayıdıb.

Üzeyir Hacıbəylinin şedevr əsəri 19 oktyabrda Ankara səhnəsində nümayiş olunub.

Operettanın növbəti tamaşaları 28 oktyabr, 4, 13, 25 noyabr tarixlərinə nəzərdə tutulub.

Tamaşanın quruluşçu rejissoru Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının baş rejissoru Əməkdar incəsənət xadimi Hafiz Quliyevdir.

Qeyd edək ki, 1913-cü ildə Bakıdakı premyerasından sonra dünyanın bir çox səhnələrini bəzəyən "Arşın mal alan" Ankara Dövlət Opera və Balet Teatrında da yeni quruluşda sənət ömrünü yaşayır.

Yeni quruluşda ilk nümayişi bu il yanvarın 13-də olan tamaşada orkestri Ankara teatrının dirijoru, Türkmənistan əsilli Rüstəm Rahmetov idarə edib. Librettonun mətnini türkcəyə uyğunlaşdıran Hacettepe Universiteti Konservatoriyasının müəllimi Şenol Talınlı, dekor və kostyum üzrə rəssam Yusuf Toker, işıq üzrə rəssam Ali Gökdemir, xoreoqraf Özge Ay, konsertmeyster Erkin Onaydır.

Qeyd edək ki, rejissor Hafiz Quliyev bundan əvvəl 2003 və 2013-cü illərdə də "Arşın mal alan"a Ankara teatrının səhnəsində quruluş verib.

## Sürətlə qurulan və böyüyən Füzulinin ikinci "Şəhər günü"

Füzuli şəhəri "Böyük Qayıdış" Proqramı çərçivəsində işğaldan azad olunmuş torpaqlar arasında ən çox keçmiş məcburi köçkünün məskunlaşdığı ünvandır. Füzuliyə ilk köç karvanı 2023-cü ilin 18 avqust tarixində olmuşdu. O zaman 90 nəfərdən ibarət 23 ailə doğma yurda qovuşmuşdu. Bu gün artıq Füzulidə 822 ailə olmaqla 3132 nəfərin daimi məskunlaşması təmin edilib.




Oktyabrın 17-də Füzuli sakinləri bayram sevinci yaşayırdılar. Yenidən qurulan doğma eldə növbəti "Şəhər günü" qeyd olunurdu. Prezident İlham Əliyevin 31 iyul 2023-cü il tarixdə imzaladığı sərəncamla ölkəmizin işğaldan azad edilmiş əraziləri üzrə şəhər günləri təsis edilib. 17 oktyabr Füzuli Şəhəri Günü kimi təqvimimizə yazılıb.

Mədəniyyət Nazirliyi və Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin birgə təşkilatçılığı ilə təntənəli şəkildə növbəti Füzuli Şəhəri Günü keçirildi.





Füzuli şəhərinin 1-ci yaşayış məhəlləsində yerləşən parkda Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyi tərəfindən "Ümummilli lider Heydər Əliyev və Füzuli", Mədəniyyət Nazirliyi tərəfindən "Zamanın qanadlarında: Füzuli" adlı fotosərgilər təşkil olunmuşdu. Prezident İlham Əliyevin Füzuli rayonuna səfərlərini əks etdirən və "Füzuli: işğaldan öncə", "Füzuli: işğal zamanı", "Füzuli: işğaldan sonra" adlı, həmçinin Füzuli şəhəri ilə qardaşlaşmış Türkiyənin Çorum və Özbəkistanın Gülüstan şəhərlərinə aid stendlər quraşdırılmışdı.

Burada həmçinin Mədəniyyət Nazirliyi tərəfindən təşkil olunmuş "Mənim Füzulim" adlı rəsm sərgisi də təqdim edilirdi. Sərgi məkanında qurulmuş daha bir stenddə Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti və AMEA-nın Arxeologiya və Antropologiya İnstitutu tərəfindən Füzuli rayonunun tarix və mədəniyyət abidələri haqqında məlumatlar və rayonda aparılan arxeoloji qazıntılar nəticəsində aşkar olunmuş maddi mədəniyyət nümunələri nümayiş etdirilirdi.

"ABAD" üçün ayrılmış xüsusi çadırda isə bir sıra dekorativ-tətbiqi sənət növləri üzrə ustad dərsləri təşkil olunmuşdu. Park ərazisində uşaqların əyləncəsi üçün də şərait yaradılmışdı.

*davamı səh. 3-də*

## Xalq tətbiqi sənətinin ən çox yayılmış növü

Xəbər verdiyimiz kimi, 16-18 oktyabr tarixlərində Azərbaycan Milli Xalça Muzeyində "Tikmə sənəti" adlı beynəlxalq elmi konfrans keçirildi. Konfrans Milli Xalça Muzeyi və Azərbaycan Mədəniyyət Nazirliyinin təşkilatçılığı, MDB Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondunun dəstəyi ilə reallaşdı.



Oktyabrın 16-da konfransın açılışında çıxış edən Milli Xalça Muzeyinin direktoru Əməkdar mədəniyyət işçisi Əminə Məlikova tədbirin əhəmiyyətindən danışdı. Bildirdi ki, konfransın əsas məqsədi dünya xalqlarının ortaq mirası olan tikmələrlə bağlı tədqiqat işlərini genişləndirmək, faydalı fikir və təcrübə mübadiləsi aparmaqdır.

Qeyd olundu ki, dekorativ-tətbiqi sənət növü olan bədii tikmənin qədim tarixi var. Geyim üzərində, habelə məişət əşyalarından pərdə, örtük, süfrə, balış, mütəkkə və s. üzərində işlənilmiş bəzəklər xalq sənətinin ən çox yayılmış növü sayılan tikmə üsulu ilə icra olunub. Hazırda dünyada bədii tikmə növünü yaşadan rəssam və sənətkarlarla yanaşı, bu sahədə tədqiqatlar aparan mütəxəssislər, həmçinin Azərbaycan Milli Xalça Muzeyi kimi ixtisaslaşmış mədəniyyət müəssisələri fəaliyyət göstərir.

Diqqətə çatdırıldı ki, konfransa Azərbaycan, Belarus, Rusiya, Gürcüstan, Qazaxıstan, Özbəkistan və Qırğızıstandan tədqiqatçılar qatılıb.

*davamı səh. 5-də*

## Yağış yuyar, gün qurudar...

Oktyabrın 21-i və 22-nə keçən gecə Bakıya son illərdə (hətta son onilliklərdə) görünməmiş həcmdə yağış yağıb. Rəsmi qurumların bildirdiyinə görə, paytaxtın bəzi yerlərinə sutka ərzində 2-3 aylıq normada yağıntı düşüb. Təbiətin şıltaqlığı bir sıra yerlərdə təbii fəlakət həddinə çatıb, dağıntı və xəsarətə, hətta, təəssüf ki, ölümə də səbəb olub.

Hərçənd nəzərə alsaq ki, indi payızın "oğlan çağı"dır, günün birində ağır leysana düşüb, selə tuş gələcəyimiz, əslində, gözlənilən olmalıdır. Üstəlik, bu il yayın cırhacırında belə yağmış güclü yağışlar bunu gözləməyə əsas verirdi. Amma və lakin, daha əvvəllər dəfələrlə olduğu kimi, yenə aidiyyəti qurumlar vəziyyətə hazırlıqsız yaxalandılar...

İntensiv yağıntılarla əlaqədar Bakı şəhəri və Abşeron rayonu ərazisində su basmış ərazilərdə yaranan problemlərin aradan qaldırılması üçün aidiyyəti qurumlar gücləndirilmiş iş rejimində fasiləsiz fəaliyyət göstərir və birgə tədbirlər həyata keçirir.

*davamı səh. 2-də*



Paytaxtdakı xalq teatrlarının festivalı

*səh. 3*



Ramiz Mirişlinin 90 illiyi Gəncədə qeyd edilib

*səh. 4*

# Beynəlxalq Muğam Mərkəzinə “Beynəlxalq” statusunun verilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin QƏRARI



“Mədəniyyət haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı əlavə tədbirlər və “Mədəniyyət haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 16 aprel tarixli 698 nömrəli Fərmanının ləğvi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 14 may tarixli 162 nömrəli Fərmanının 1.2-ci bəndinə əsasən, Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. Beynəlxalq Muğam Mərkəzinə “Beynəlxalq” statusu verilsin.

2. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə birlikdə bu Qərardan irəli gələn məsələləri həll etsin.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**
**Bakı şəhəri, 22 oktyabr 2024-cü il**

# “Akademik”dən sonra “beynəlxalq”...

## “Mədəniyyət təsisatlarına xüsusi statusların verilməsi Qaydası”na dəyişiklik edilib

“Mədəniyyət təsisatlarına xüsusi statusların verilməsi Qaydası”nın və “Xüsusi status almış mədəniyyət təsisatlarının işçilərinin aylıq vəzifə maaşlarına müəyyən edilmiş əlavələr”in təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 5 oktyabr tarixli 382 nömrəli Qərarında dəyişiklik edilib.

Baş nazir Əli Əsədov bununla bağlı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 21 oktyabr 2024-cü il tarixli 458 nömrəli Qərarını imzalayıb.

Qərarla 2016-cı il 5 oktyabr tarixində təsdiq edilmiş “Mədəniyyət təsisatlarına xüsusi statusların verilməsi Qaydası”nın müvafiq bənd və hissələrində “akademik” sözündən sonra “beynəlxalq” sözü əlavə edilib.

“Beynəlxalq” status müvafiq meyarlar nəzərə alınmaqla verilir. O cümlədən konsert müəssisələri üzrə tərkibində ən azı 2 kollektivi olan; beynəlxalq səviyyədə böyük nüfuz qazanan, milli mədəniyyətin təbliğatı və təşviqatı istiqamətində, o cümlədən beynəlxalq miqyasda təbliğində xüsusi rolu olan; dünyanın aparıcı konsert və ya mədəniyyət sahəsi üzrə ixtisaslaşmış təşkilatı və ya digər mədəniyyət müəssisələri, folklor-araşdırma, ekspedisiya mərkəzləri, müvafiq beynəlxalq təşkilatlar, eləcə də xarici ölkələrin aidiyyəti qurumları, diplomatik nümayəndəliklər ilə birgə əməkdaşlıq edən, tərkibində səsyazma və ya video studiyaları yaradan və kimi digər meyarlara cavab verən mədəniyyət təsisatına “Beynəlxalq” statusu verilə bilər.

Həmçinin 2016-cı il 5 oktyabr Qərarla təsdiq edilmiş “Xüsusi status almış mədəniyyət təsisatlarının işçilərinin aylıq vəzifə maaşlarına müəyyən edilmiş əlavələr” üzrə müvafiq dəyişiklik edilib.

# Teatr Xadimləri İttifaqı idarə heyətinin Gəncədə səyyar iclası

Oktyabrın 21-də Azərbaycan Teatr Xadimləri İttifaqı (ATXİ) idarə heyətinin Gəncə Dövlət Milli Dram Teatrında səyyar iclası keçirilib. Əvvəlcə qonaqlar Gəncə teatrının binası və Gəncə Teatr Muzeyi ilə tanış olublar.



Sonra teatrın konfrans zalında ATXİ-nin səyyar iclası başlanıb. İclasda ittifaqın sədri Xalq artisti Hacı İsmayılov, sədr müavinləri – Xalq artisti İlham Namiq Kamal, Əməkdar artist Azad Şükürov, idarə heyətinin üzvü Xalq artisti Məhərrəm Fərzəlibəyov, məsul katib Aida Qafarova, təftiş komissiyasının sədri Əməkdar incəsənət xadimi Hafiz Quliyev, hüquqşünas Könül Ələkbərova, Gəncə Dövlət Milli Dram Teatrı, Mingəçevir Dövlət Dram Teatrı və Şəki Dövlət Dram Teatrının nümayəndələri iştirak ediblər.



Hacı İsmayılov giriş sözündə Azərbaycan teatrlarının bugünkü vəziyyətindən, uğur və problemlərindən danışıb, Gəncə teatrının beynəlxalq tədbirlərdə ölkəmizi layiqincə təmsil etdiyini bildirib. O, Gəncə teatrının direktoru Aqil Bəhramlıya ATXİ-nin “Teatr xadimi” medalını təqdim edib. A.Bəhramlı fəaliyyətinə göstərilən diqqətə görə ittifaqın rəhbərliyinə təşəkkürünü bildirib, teatrın qarşısında duran həlli vacib məsələlərdən danışıb.

İclasda çıxış edən İlham Namiq Kamal, Azad Şükürov, Məhərrəm Fərzəlibəyov, Valeh Kərimov, Gəncə teatrının ədəbi hissə müdiri Anar Bürcəliyev, Şəki teatrının baş rejissoru Mirbala Səlimli, Mingəçevir teatrının aktrisası, Xalq artisti Ella Yaqubova, aktrisa Könül Hacıyeva və digərləri teatrların mövcud vəziyyəti ilə bağlı fikir və təkliflərini səsləndiriblər.

# Vaşinqton Bakını niyə tələsdirir?

## Daimi sülh üçün Ermənistan Azərbaycana qarşı ərazi iddiasını Konstitusiyadan çıxarmalıdır



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 21-də ABŞ Prezidentinin xüsusi köməkçisi və Milli Təhlükəsizlik Şurasının Avropa üzrə baş direktoru Maykl Karpenteri qəbul edib.

Maykl Karpenter qəbula görə təşəkkürünü bildirib və ABŞ Prezidenti Cozef Baydenin məktubunu dövlətimizin başçısına təqdim edib.

O, ABŞ-nin Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin tezliklə imzalanmasını dəstəklədiyini vurğulayaraq, sülh müqaviləsinin imzalanması üçün hazırkı şəraitdə tarixi imkanların olduğunu deyib.

Sülh müqaviləsinin imzalanması ilə regional əməkdaşlıq üçün geniş imkanların yaranacağını vurğulayan qonaq bildirib ki, ABŞ-nin bu prosesin irəli aparılmasında qəti dəstəyi var.

Prezident İlham Əliyev sülh müqaviləsinin və onun əsasını təşkil edən beş prinsipin təşəbbüskarının məhz Azərbaycan olduğunu diqqətə çatdıraraq vurğulayıb ki, ölkəmiz regional sülh gündəliyini dəstəkləyir. Prezident qeyd edib ki, Ermənistanın sülh müqaviləsinin mətni üzrə son təklifləri 70 gündən sonra göndərməsi bu ölkənin prosesin irəli aparılması niyyəti ilə bağlı müəyyən suallar doğurur. Ermənistanın konstitusional əsasda Azərbaycana qarşı ərazi iddialarının sülh müqaviləsinin imzalanması yolunda başlıca maneə olduğunu bildirən İlham Əliyev ölkəmizin prosesin irəli aparılması üçün bundan sonra da qəti addımlarını davam etdirəcəyini vurğulayıb.

Görüşdə Azərbaycan ilə ABŞ arasında ikitərəfli gündəliyə aid olan məsələlər barədə də fikir mübadiləsi aparılıb.

### Əsrlər boyu davam edən münaqişə?

Qeyd edək ki, ABŞ Prezidenti Cozef Baydenin Azərbaycan rəhbərinə göndərdiyi məktubun mətni rəsmi mətbuatda dərc olunub.

Məktubda deyilir:

“Hörmətli cənab Prezident,

İki ölkə arasında münasibətlərin normallaşdırılmasına xidmət edəcək sülh sazişinin yekunlaşdırılması istiqamətində ölkənizin və Ermənistanın əldə etdiyi davamlı tərəqqidən məmnunam. Sizi əmin etmək istəyirəm ki, ABŞ əsrlər boyu davam edən münaqişəyə, nəhayət, son qoyacaq Azərbaycan ilə Ermənistan arasında dayanıqlı və ləyaqətli sülhün əldə edilməsinə dəstək verməyə hazırdır.

Sülh sazişi Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün təmin edilməsi ilə yanaşı, bütün regionu transformasiya edəcək, Avropa və Mərkəzi Asiya arasında daha çox ticarətə, sərmayə qoyuluşuna və bağlılığa xidmət göstərəcək. Dünyanın diqqəti COP29 ilə bağlı Bakıya yönəldiyi bir vaxtda qlobal ictimaiyyətə sülhə sadiqliyinizi nümayiş etdirmək üçün misilsiz imkana maliksiniz. Bildiyiniz kimi, sülh sazişinin razılaşdırılmamış bəndlərinə dair işin yekunlaşdırılması hər iki tərəfdən kreativlik və güzəşt tələb edəcək. Lakin əminəm ki, bu imkandan yararlanmağa davam edəcəksiniz. Mən Sizi cari ildə sazişi yekunlaşdırmağa dəvət edirəm.

Bu məsələyə dəstək verməyə sadiq olduğumu bildirmək istəyirəm. Mənim administrasiyam sülhə yol açacaq cəsarətli təşəbbüslərin irəli sürülməsinə hazırdır. Xahişimlə xüsusi köməkçim, Avropa üzrə baş direktor Maykl Karpenter atmağa hazır olduğumuz müəyyən addımlarla bağlı Sizi məlumatlandıracaq və Ermənistanla müzakirələrə dair Sizin mövqeyinizi öyrənəcək.

Ümid edirəm ki, birgə firavanlıq və ümumi xeyir naminə regiona dair yeni kursun seçilməsi üçün bu fürsətdən yararlanacaqsınız”.

Məktubda diqqəti çəkən məqamlardan biri ABŞ liderinin Ermənistan-Azərbaycan konflikti ilə “əsrlər boyu davam edən münaqişə” kimi söz etməsidir. Görünür, Ağ Evdə Ermənistanın Azərbaycana qarşı ərazi iddiası (1988) ilə başlayıb hərbi təcavüzə (1992) keçən münaqişənin tarixini artıq unudublar. Yaxud da XX və XXI əsrləri bir-birinə bağlayan bu münaqişəyə, sadəcə, geniş tarixi kontekstdə yanaşaraq buna bir az pafos da qatıblar.

Lakin əsas olan bu deyil. Görünən odur ki, rəsmi Vaşinqton, uzun illər Minsk qrupu çərçivəsindəki vasitəçiliyində olduğu kimi, indi də əsas (güzəşt) addımı Bakıdan gözləyir. Halbuki Ermənistanla Azərbaycan arasında davamlı sülhə zəmin olacaq müqavilənin imzalanması üçün, ilk növbədə, qarşı tərəf ölkəmizə qarşı ərazi iddiasını, yəni artıq defakto gündəmdən çıxmış və tarixin küllüyünə atılmış “Dağlıq Qarabağ məsələsi”ni öz Konstitusiyasından çıxarmalı və bu məsələyə de-yure son qoymalıdır. Azərbaycan tərəfi bununla bağlı prinsipial mövqeyini dəfələrlə diqqətə çatdırıb.

Başqa sözlə, özünün ömrünün sonuna cəmi bir neçə ay qalmış Bayden administrasiyası bu zaman kəsiyində Azərbaycanla Ermənistan arasında sülh sazişinin reallaşmasını belə çox istəyirsə, öncə üzünü İrəvana tutmalı və onu tələsdirməlidir.

# Zamanını aşan miras – Muzey Mərkəzində sərgi

## İpək Yolu motiv-mövzulu əsərlər nümayiş olunur



əvvəli səh. 1-də

“İnsan və Mədəniyyət Hərəkatı”nın sədri Məryəm Güney həyata keçirdikləri “Zamansız miras İpək Yolu” layihəsi barədə məlumat verib: “Bu layihə minilliklər boyu keçdiyi bütün bölgələrin sivilizasiya izlərini daşıyan, qeyri-adi tarixi-mədəni zənginliyi özündə ehtiva edən İpək Yolunun tarixi missiyasını xatırlatmaq, Türk dünyası ilə olan əlaqələrimizin inkişafına töhfə vermək, gələcək birgə layihələr üçün zəmin yaratmaq, elm və sənət dünyamıza yeni əsərlər gətirmək məqsədi daşıyır”.

Bildirilib ki, layihə çərçivəsində Türkiyə, Azərbaycan, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Çin, Əfqanıstan, Pakistan, İran və Suriyadan olan sənətkarların mövzuya uyğun hazırladıqları əsərlər Bakıda sərgilənir. Həmçinin eyni ölkələrdən qatılan sənət və elm adamlarının iştirakı ilə təşkil olunan simpoziumda İpək Yolunun tarixini, mühüm mərkəzlərini, dil və ədəbiyyatını, elm və incəsənətini, memarlığını və ticarətini bir çox aspektlərdə əhatə edən məruzələr dinləniləcək: “Düşünürəm ki, belə layihələr bizi bir-birimizə daha da yaxınlaşdıracaq, aramızdakı sərhədləri aradan qaldıracaq, sivilizasiyaya baxışımızı qoruyub saxlayacaq, yeni ideya və texnika mübadiləsi ilə irəli aparacaq”.

Xəzər Universiteti Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı layihənin vacibliyindən və qədim İpək Yolunun keçdiyi ərazilərdə sənətin inkişafına gətirdiyi yeniliklərdən danışıb.

Türkiyənin ölkəmizdəki səfiri Cahit Bağçı layihənin Türk dünyasının sənət irsinin yenidən tanınması və gələcək nəsillərə çatdırılması baxımından böyük əhəmiyyət daşıdığını söyləyib.

Səfir deyib: “Bu mədəniyyəti qorumaq və yaşatmaq hamımızın borcudur. İpək Yolu təkcə ticarətin deyil, həm də mədəniyyətin, sənətin inkişafına böyük təsir göstərib. Bu mədəni mirasın indi də yaşadılmasında belə sərgilərin böyük rolu var. Bu önəmli tədbirdə Türk dünyasının tarixi və mədəni zənginliyini, mədəniyyətlərarası bağları və müştərək mirasını özündə birləşdirən sənət nümunələri sərgilənəcək”.

Qeyd edilib ki, ekspozisiyada İpək Yolu istiqamətini əhatə edən 41 sənətkarın xəttatlıq, təzhib, miniatür, ebru, qələm işi (qrafik xətt), ağacoyma, sədəf düzmə, keramika, zinət əşyaları və digər əsərləri nümayiş olunur.

Sonra iştirakçılar sərgi ilə tanış olublar.

Oktyabrın 26-dək davam edəcək sərgi çərçivəsində panel müzakirələr də aparılacaq.

# Yağış yuyar, gün qurudar...

## Aidiyyəti qurumlar niyə təbiətlə yola gedə bilmirlər?

əvvəli səh. 1-də

Bu barədə Ekologiya və Təbii Sərvətlər, Fövqəladə Hallar nazirliklərinin, Bakı Şəhər İcra Hakimiyyətinin və Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin oktyabrın 22-də yaydığı birgə məlumatda bildirilib.

Məlumata görə, Fövqəladə Hallar Nazirliyinin qüvvələri hadisə ilə əlaqədar dərhal ərazilərə cəlb olunub, su basmış yerlərdən suyun çəkilərək kənarlaşdırılması, köməyə ehtiyacı olan vətəndaşların təxliyəsi və digər zəruri təhlükəsizlik tədbirlərinin həyata keçirilməsini təmin edir.

Bakı Şəhər İcra Hakimiyyəti subasma ilə bağlı şəhər ərazisində, xüsusilə körpü, tunel və keçidlərdəki zəif nöqtələrin müəyyən edilməsi istiqamətində araşdırmalar aparıb. Şəhərdəki körpülərdə, tunellərdə və keçidlərdə su nasoslarının gücləndirilməsi və təkmilləşdirilməsi ilə bağlı aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilib. Prospekt və küçələrdə yağış suları yığan şəbəkə və su kollektorlarının inventarizasiyası işləri aparılır, çatışmazlıqların müəyyən edilməsi, gələcəkdə bu kimi halların baş verməməsi və belə halların operativ şəkildə aradan qaldırılması məqsədilə tədbirlər həyata keçirilir.

Dövlət Su Ehtiyatları Agentliyinin İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidmətinin briqadaları yağış və kanalizasiya kollektorlarının təmizlənməsi, yığılan suların ərazilərdən çəkilməsi, yağışın səbəb olduğu fəsadların aradan qaldırılması istiqamətində sistematik və operativ tədbirlər həyata keçirir.

“Bu, müəyyən mənada, təbii fəlakətdir. Proses göz qabağındadır, normadan artıq yağıntı olub” – bunu isə Bakının icra başçısı Eldar Əzizov jurnalistlərə açıqlamasında deyib.

O qeyd edib ki, Bakı sürətlə inkişaf edir, yeni binalar tikilir. Buna paralel olaraq kanalizasiya sistemi də inkişaf etməlidir: “Bu isə bəzən alınır, bəzən yox. Hər halda, problemlər mövcuddur. Kanalizasiya sisteminin problemi müəyyən mənada gündəlikdədir və tədbirlər görülür. Bilirsiniz ki, bu, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəzifəsidir, amma biz də bu prosesdə iştirak edirik, özümüzü kənarlaşdırmırıq...”.

Təbii ki, baş verənlərdən sonra heç bir aidiyyəti qurum yaxasını məsuliyyətdən kənara çəkməməlidir.

Yeri gəlmişkən, Azərbaycan dilinin frazeologiya lüğətində “quru yuyub yaş sərmək” ifadəsi var. Bərk danlamaq, məzəmmət etmək, töhmətləndirmək və s. mənaları verir.

Paytaxtdakı yağış fəlakətindən sonra da kimlərinsə bu frazeoloji birləşməyə tuş gələcəyi yəqindir.

Üstəlik, yağış paytaxtda insan həyatına da son qoyub.

Sabunçu rayonu, Asif Əsədullayev küçəsində yerləşən və yağış suları ilə dolmuş tuneldə (“Sabunçu keçidi” adlanan yer) Fövqəladə Hallar Nazirliyinin əməkdaşları tərəfindən həyata keçirilən axtarış-xilasetmə tədbirləri nəticəsində boğulması ehtimal edilən 1976-cı il təvəllüdlü Şirinov Elnur Fazil oğlunun və 1995-ci il təvəllüdlü Abbasov Köçəri Fərman oğlunun cəsədləri aşkar edilərək aidiyyəti üzrə təhvil verilib. Faktla bağlı Sabunçu rayon prokurorluğunda araşdırma aparılır.

***

Bakıda intensiv yağışlar nəticəsində tunellərin su ilə dolması bir sıra müntəzəm marşrutların fəaliyyətində dəyişikliklərə səbəb olub. Bu barədə isə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi (AYNA) məlumat yayıb.

Milli Hidrometeorologiya Xidməti isə oktyabrın 23-ü və sonrakı günlər üçün nikbin proqnoz verib. O cümlədən Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Bəzi şəhərətrafı ərazilərdə qısamüddətli az yağış ehtimalı da var.

Necə deyərlər, ümid hələlik əlverişli (daha yaxşı olardı ki, günəşli) havaya qalıb. Şair demişkən:

*Bu yerləri, bu göyləri*
*Yağış yuyur, gün qurudur.*
*Bu dünyada çox şeyləri*
*Yağış yuyur, gün qurudur...*

# Mədəniyyət naziri Milli Gənc Tamaşaçılar Teatrının kollektivi ilə görüşüb





Mədəniyyət naziri Adil Kərimli oktyabrın 18-də Azərbaycan Dövlət Milli Gənc Tamaşaçılar Teatrının kollektivi ilə görüşüb.

Teatrın zalında keçirilən görüşdə nazir Gənc Tamaşaçılar Teatrının Azərbaycan mədəniyyətində xüsusi yeri olduğunu qeyd edib. Bildirilib ki, teatr maraqlı tamaşalar, həyata keçirdiyi layihələrlə yanaşı, xarici ölkələrdə təşkil olunan festivallarda da ölkəmizi uğurla təmsil edir.

Nazir qeyd edib ki, Prezident İlham Əliyev tərəfindən mədəniyyətin digər sahələri kimi, teatr sənətinin də inkişafına diqqət və qayğı göstərilir. Son illərdə bəzi teatrlara "akademik", Gənc Tamaşaçılar Teatrı da daxil bir neçə kollektivə "milli" statuslarının verilməsi bu diqqətin bariz nümunəsidir.

Teatrın direktoru Naidə İsmayılzadə kollektivlə görüşə gəldiyi, sənət ocağının problemləri ilə maraqlandığı üçün nazirə təşəkkür edib.

Direktor teatrın bir sıra texniki problemlərini nəzərə çatdıraraq qeyd edib ki, yaradıcı prosesin güclənməsi, yeni tamaşaların daha keyfiyyətli hazırlanması üçün texniki bazanın gücləndirilməsi əhəmiyyətlidir.

Teatrın rejissorları Ağalar İdrisoğlu, Gülnar Hacıyeva, Elşad Rəhimzadə, Xalq artistləri Yasin Qarayev, Nübar Novruzova, Naibə Allahverdiyeva, Əməkdar artistlər Kəmalə Müzəffər, Nofəl Vəliyev, Şövqi Hüseynov, Elnur Kərimov, aktyorlar Aygün Fətullayeva, İmdad Tofiqoğlu, işıq sexinin rəisi Vadim Kuskov, radio sexinin rəisi İradə Muradova, dekorçu Pərvanə Məmmədova çıxış edərək teatrın uğurlarından, yaradıcılıq prosesindən, eləcə də mövcud problemlərdən danışıblar.

Adil Kərimli teatrın texniki və digər məsələlərinin diqqətdə olduğunu, səslənən problemlərin ardıcıl həlli istiqamətində işlər aparılacağını vurğulayıb. O, həmçinin nazirliyin teatr sənətinin inkişafına yönəlmiş təşəbbüslərə, yaradıcı təkliflərə dəstək verməyə hazır olduğunu bildirib.

Nazir görüşün sonunda kollektivə yaradıcı fəaliyyətində uğurlar arzulayıb.

# Milli Konservatoriyada musiqi təhsili ilə bağlı müzakirələr aparılıb

Mədəniyyət naziri Adil Kərimli oktyabrın 17-də Azərbaycan Milli Konservatoriyasında olub.

Kollektivlə görüşdə nazir Azərbaycan milli musiqisinin zənginliyini qeyd edib, bu sahədə tədrisin yüksək səviyyədə qurulmasının əhəmiyyətli olduğunu bildirib.



Nazir musiqi təhsili sahəsində fikir mübadiləsi aparılmasına ehtiyac olduğunu deyib: "Bu mənada, musiqi məktəblərində tədrisin səviyyəsinin yüksəldilməsi diqqətdə saxlanılmalıdır. Milli musiqinin məzmunca inkişaf etdirilməsi önəmlidir. Bu inkişaf isə ilk olaraq musiqi məktəblərindən başlamalıdır. Hazırda musiqi və incəsənət məktəblərində islahat və yenilənmələr davam etdirilir. Xüsusilə regionlarda fəaliyyət göstərən musiqi məktəblərinin alətlərlə təminatı sahəsində problemlər də diqqət mərkəzindədir".

Söhbət zamanı xalq çalğı alətləri üzrə yeni tədris proqramlarının hazırlanmasının da vacibliyi vurğulanıb.

A.Kərimli bildirib ki, Mədəniyyət Nazirliyi tərəfindən mədəniyyət və yaradıcı sənayelər üzrə kadr potensialının inkişaf etdirilməsi prioritet hesab olunur. Bu məqsədlə elan olunan təqaüd proqramı çərçivəsində bakalavriat və magistratura səviyyələrində xaricdə təhsil və təlim kursları üzrə sənəd qəbulu aparılır.

Milli Konservatoriyanın rektoru Xalq artisti Siyavuş Kərimi musiqi təhsili ilə bağlı müəyyən problemlərin olduğunu söyləyib. O, son dövrdə musiqi təhsili sahəsində aparılan islahat və yenilikləri yüksək qiymətləndirib.

Sonra təhsil ocağının professor-müəllim heyətinin mədəniyyət və musiqi təhsili üzrə təklifləri dinlənilib.

# Müstəqilliyimizin 33 yaşı münasibətilə

Oktyabrın 18-də Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsinin 33-cü ildönümü tamam oldu. 1991-ci ilin bu günü ölkə parlamenti – Ali Sovet "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı qəbul edib.

Bu münasibətlə Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin tabe müəssisələrində bir sıra tədbirlər təşkil olunub.

Yasamal rayon Heydər Əliyev Mərkəzində Müstəqilliyin Bərpası Gününə həsr olunan "Azərbaycanın dövlət müstəqilliyi əbədidir" adı mühazirə keçirilib. Tədbirdə 286 və 308 nömrəli tam orta məktəblərin müəllim və şagird kollektivi iştirak edib. Sonra mövzu üzrə film nümayiş olunub.

Şüvəlan qəsəbə Mədəniyyət evi Fuad Fərhadoğlu adına 230 nömrəli tam orta məktəblə birgə Müstəqilliyin Bərpası Gününə həsr olunmuş "Ən böyük nailiyyətimiz əbədi müstəqilliyimizdir" adlı tədbir keçirib. Bədii hissədə Mədəniyyət evinin poeziya dərnəyinin şagirdləri çıxış ediblər. Mədəniyyət evində fəaliyyət göstərən rəsm kursunun və 230 nömrəli tam orta məktəbin şagirdlərinin təqdim etdiyi sərgiyə baxış keçirilib.

Qaradağ rayon Heydər Əliyev Mərkəzində "Müstəqilliyimiz əbədidir" adlı dəyirmi masa keçirilib. Çıxışlardan sonra mövzu ilə əlaqədar film nümayiş olunub.

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin təşkilatçılığı ilə Müstəqilliyin Bərpası Günü, eləcə də Füzuli (17 oktyabr), Zəngilan (20 oktyabr) şəhərlərinin işğaldan azad olunması ilə əlaqədar Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində konsert proqramı keçirilib. Müğənni Xatun Əliyevanın "Səma" rəqs ansamblının müşayiəti ilə oxuduğu mahnılar alqışlarla qarşılanıb.

# Bəstəkar Kamal Əhmədovun 75 illiyi qeyd olunub

M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında bəstəkar, Əməkdar incəsənət xadimi Kamal Əhmədovun 75 illik yubileyinə həsr olunmuş konsert keçirilib.



Oktyabrın 18-də gerçəkləşən tədbirdə əvvəlcə musiqişünas, sənətşünaslıq üzrə fəlsəfə doktoru Günay Məmmədova yubilyarın həyat və yaradıcılığı haqqında məlumat verib.

Konsertdə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri (dirijor Mustafa Mehmandarov), Azərbaycan Dövlət Xor Kapellası (bədii rəhbər Xalq artisti Gülbacı İmanova) və tarda Əməkdar artist Zeynalabdin Babayevin müşayiəti ilə solistlər – Əməkdar artist Tural Ağasıyev (tenor), respublika və beynəlxalq müsabiqələr laureatları Fəxri Kazım-Nicat (tenor), Talıb İsgəndərli (bariton), Nigar Əskərova (soprano) və Safura Aslanova (soprano) çıxış ediblər.

Proqramda Xəyyam Mirzəzadənin "Səməd Vurğunun poemasına musiqili illüstrasiyalar", Kamal Əhmədovun "Vətəndir" romansı (sözləri Elbəyi Maqsudovun), "Azərbaycan bayrağı", "Əbədi məşəl" əsərləri (sözləri Xanəli Kərimlinin) səsləndirilib.

Sonda səhnəyə çıxan yubilyar bəstəkar konsertin ərsəyə gəlməsində əməyi keçən hər kəsə minnətdarlığını bildirib.

# Paytaxtdakı xalq teatrlarının festivalı

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin təşkilatçılığı ilə görkəmli dramaturq, teatr xadimi, şair, nasir Cəfər Cabbarlının (1899–1934) anadan olmasının 125 illiyi münasibətilə Xalq Teatrları Festivalı keçirilib.



Festival mədəniyyət müəssisələrində fəaliyyət göstərən xalq teatrlarının, eləcə də dram dərnəklərinin işinin daha da səmərəli təşkili, özfəaliyyət teatr kollektivlərinə gənc nəslin cəlb edilməsi, xalq teatrlarının və dərnəklərin fəaliyyətini dövrün tələblərinə uyğun qurulması məqsədilə təşkil olunub.

Festivalda paytaxtda fəaliyyət göstərən 20 xalq teatrı iştirak edib. İlk seçim müsabiqəsi oktyabrın 19-da Şağan qəsəbə Mədəniyyət Mərkəzində, oktyabrın 20-də isə Mərdəkan Mədəniyyət Sarayında olub.

Nümayiş olunan tamaşalar münsiflər heyətinin üzvləri Xalq artisti Həmidə Ömərova, Əməkdar incəsənət xadimləri Əli Əmirli və Bəhram Osmanov tərəfindən rejissor işi, musiqi tərtibatı, bədii tərtibat, aktyor oyunu meyarları üzrə qiymətləndirilib.

Festivalın bağlanış və mükafatlandırma mərasimi oktyabrın 26-da Mərdəkan Mədəniyyət Sarayında keçiriləcək.

# Sürətlə qurulan və böyüyən Füzulinin ikinci "Şəhər günü"



əvvəli səh. 1-də

Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov, mədəniyyət nazirinin müavini Murad Hüseynov, şəhər sakinləri, ictimaiyyət nümayəndələri sərgi ilə tanış oldular.

Yeri gəlmişkən, qeyd edək ki, builki Füzuli Şəhəri Günü daha bir əlamətdar hadisə ilə yadda qaldı. 16-18 oktyabr tarixlərində keçirilən "Mingəçevir reqatası – 2024" beynəlxalq avarçəkmə turnirinin növbəti mərhələsi Füzuli şəhəri yaxınlığındakı Aşağı Köndələnçay su anbarında gerçəkləşirdi. Yəni bir tərəfdə incəsənət rüzgarı əsir, digər tərəfdə idman şöləni yaşanırdı. Avarçəkmə yarışının Azərbaycan, Estoniya, Gürcüstan, İtaliya, Macarıstan, Qazaxıstan, Litva, Moldova, Polşa, Türkiyə, Ukrayna və Özbəkistandan olan bir qrup iştirakçısı da sərgiləri ziyarət etdilər.

***

Daha sonra park ərazisində qurulmuş səhnədə Azərbaycan Yazıçılar Birliyi Xəzər bölməsinin sədri şair Arif Buzovnalının aparıcılığı ilə "Füzuli – 530" adlı musiqili-ədəbi kompozisiya nümayiş etdirildi.

Arif Buzovnalı Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə 530 illiyi dövlət səviyyəsində qeyd olunan dahi şair və mütəfəkkir Məhəmməd Füzulinin yaradıcılığından söz açdı. O, Füzulini Azərbaycan, fars və ərəb dillərində divan bağlayan nadir söz ustadlarından biri kimi səciyyələndirdi.

Xanəndələr Orxan Hüseynli və Könül Məmmədli şairin qəzəlləri üstündə müxtəlif muğam parçalarını ifa etdilər. Bədii qiraətçilər Əzizəxanım Kazımova və Ağaəli Kərimli söz ustadının bir neçə qəzəlini səsləndirdi. Gənc şairlər Kamal Hüseynzadə və Elsər Qədri isə Füzulinin qəzəllərinə yazdıqları nəzirələri oxudular. Sonda Füzulinin "Leyli və Məcnun" poeması əsasında xoreoqrafik kompozisiya nümayiş olundu.

Böyük maraqla qarşılanan "Füzuli – 530" musiqili-ədəbi kompozisiyasının ssenari müəllifi Azərbaycan Yazıçılar Birliyinin katibi şair-dramaturq İlqar Fəhmi, rejissoru Əməkdar artist Loğman Kərimovdur.

***

Füzuli sakinləri mərkəzi parkda qurulan səhnədə əslən bu rayondan olan müğənni və ifaçıların iştirakı ilə geniş qala-konserti səbirsizliklə gözləyirdilər. Çünki həmyerliləri olan ifaçıları bu dəfə efir-ekrandan deyil, daha yaxından görəcəkdilər...

Əvvəlcə səhnəyə çıxan Prezidentin xüsusi nümayəndəsi Emin Hüseynov tədbir iştirakçılarına əlamətdar gün münasibətilə təbriklərini çatdırdı. O, Füzuli Şəhəri Gününün tarixi haqqında məlumat verərək dedi ki, azad Füzulidə artıq ikinci dəfədir "Şəhər günü" qeyd olunur: "Bu xoş günləri bizə canı-qanı bahasına yaşadan şəhidlərimizin ruhu qarşısında baş əyirəm. Düz dörd il bundan əvvəl Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə şanlı Ordumuz böyük qəhrəmanlıq göstərərək Füzulini işğaldan azad etdi. Bir zaman abad, gözəl şəhər olan Füzulidən əsər-əlamət qalmamışdı".



Qeyd olundu ki, Prezident İlham Əliyevin bilavasitə diqqəti və qayğısı ilə digər azad olunmuş yaşayış məntəqələri kimi, Füzuli şəhərində də genişmiqyaslı bərpa-quruculuq işləri aparılır.



Emin Hüseynov çıxışının sonunda tədbirin yüksək səviyyədə təşkilinə görə Mədəniyyət Nazirliyinə minnətdarlığını bildirdi. Dedi ki, nazirlik tərəfindən işğaldan azad edilmiş ərazilərdə rəngarəng mədəni-kütləvi tədbirlər təşkil olunur.

Sonra söz musiqiçilərə verildi.

Müğənnilər – Zamiq Hüseynov, Eldəniz Məmmədov, Elnur Məmmədli, Könül Məmmədli, Zemfira İbrahimova, Orxan Hüseynli, instrumental ifaçılar – kamançaçı Pərviz Fərhadov, tarzən Ədalət Behbudov, gitaraçı Rəhman Məmmədli, oğlu, pianoçu Tural Məmmədlinin ifasında xalq və bəstəkar mahnıları səsləndirildi.

Qazaxıstan Respublikasının hədiyyəsi olaraq Füzulidə tikilib istifadəyə verilmiş Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin şagirdləri öz rəqsləri ilə konsert proqramına əlavə rəng qatdılar. Füzuli sakinləri və şəhərin qonaqları bütün ifaçıların çıxışlarını alqışlarla qarşıladılar.

***

Füzuli Şəhəri Gününün daha bir tədbiri Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzində gerçəkləşdi. "Vətənim Füzuli" adlı konsert proqramı Qarabağ Regional Mədəniyyət İdarəsi tərəfindən təşkil olunmuşdu.

Mərkəzin böyük zalında keçirilən konsertdən öncə Dövlət Himni səsləndirildi. Sonra Ulu öndər Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olundu.

Füzuli Dövlət Dram Teatrının direktoru Əməkdar mədəniyyət işçisi Vaqif Vəliyev, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti Təsviri sənət tarixi və nəzəriyyəsi kafedrasının müdiri sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Aslan Xəlilov çıxış edərək Füzuli Şəhəri Gününün doğma yurda qayıtmış sakinlərdə əsl bayram abhavası yaratdığını bildirdilər.

Tədbirdə əslən Füzulidən olan müğənnilər tərəfindən təsnif, xalq və bəstəkar mahnıları ifa olundu, şeirlər qiraət edildi. Füzuli Dövlət Dram Teatrı aktyorlarının iştirakı ilə vətənpərvərlik motivli səhnəcik göstərildi.

Uşaq Yaradıcılıq Mərkəzinin "Qarabağ fidanları" rəqs kollektivi "Şən Azərbaycan", konsertə qonaq qismində dəvət olunan "Asiman" rəqs qrupu isə "Zaqatala" və "Yallı" rəqslərini təqdim etdilər. Bu ilin mart ayında açılışı keçirilən mərkəzdə gerçəkləşən ilk böyük tədbir-konsert maraqla qarşılandı.

***

"Şəhər günü"ndə uşaqlar da unudulmamışdı. Mirzə Uluqbəy adına Füzuli şəhər 1 nömrəli tam orta məktəbində Füzuli Dövlət Dram Teatrının repertuarından "Ayı balası" uşaq tamaşası göstərildi.

Vüqar Haqverdiyevin pyesi əsasında hazırlanmış tamaşanın quruluşçu rejissoru Emin Abışov, quruluşçu rəssamı Ellinaz Balaşova, musiqi tərtibatçısı Sənan Sevindikzadədir. Səhnə əsərinin əsas ideyası sevimli heyvanların dili ilə uşaqlara dostluq, həmrəylik kimi əxlaqi-mənəvi dəyərləri aşılamaqdır. Rolları Vüqar Babayev, Sevinc Məmmədova, Sahilə Abbasova, Emin Abışov, Şəbnəm Baxışova, Aygün Cəfərova, Gülnar Quliyeva, Vüqar İsmayılov və Vüsal Həsənov ifa edirdilər.

Səhnə əsəri uşaqlara unudulmaz anlar yaşatdı.

***

Füzuli Şəhəri Günü axşam saatlarında əfsanəvi müğənni və bəstəkar Müslüm Maqomayevin ifasında lentə alınmış "Azərbaycan" ("Baharlı yurdum", sözləri Nəbi Xəzrinindir) mahnısının sədaları altında möhtəşəm atəşfəşanlıqla başa çatdı.

Rəngarəng sərgilər, tamaşa və kompozisiyalar, konsertlər doğma yurda qayıdışın sevincini yaşayan Füzuli sakinlərinin yaddaşında silinməz izlər qoydu.

**Fariz Yunisli**
**Bakı-Füzuli-Bakı**

## Naxçıvanda Müstəqilliyin Bərpası Günü ilə əlaqədar sərgi

Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Kəngərli adına sərgi salonunda Müstəqilliyin Bərpası Günü ilə əlaqədar sərgi keçirilib.



Milli Məclisin deputatı, Naxçıvan MR Rəssamlar Birliyinin sədri Əməkdar rəssam Ülviyyə Həmzəyeva sərgi barədə məlumat verib. Qeyd olunub ki, müasir Azərbaycan dövlətinin müstəqilliyinin qorunub saxlanılması Ümummilli lider Heydər Əliyevin adı və qətiyyətli siyasəti ilə bağlıdır. Bu siyasəti Prezident İlham Əliyev uğurla davam etdirir. Bu uğurları həyatımızın bütün sahələrində görürük.

Digər çıxış edənlər Müstəqilliyin Bərpası Günü haqqında danışıb, iştirakçılara və rəssamlara təbriklərini çatdırıblar.

Əməkdar rəssam Fikrət Babayev tərəfindən çəkilmiş şəhid Şükür Hacıyevin portreti şəhidin anasına təqdim olunub.

Sərgidə 13 rəssamın ümumilikdə 36 əsəri nümayiş olunub.

## Qusar və Qax teatrlarında premyeralar

Qusar Dövlət Ləzgi Dram Teatrında uşaqlar üçün yeni tamaşanın premyerası olub. Yerli müəllif Rəvan Tohidoğlunun "Bir də etmərəm" pyesi əsasında hazırlanan eyniadlı tamaşanın quruluşçu rejissoru Bağır Əhmədov, quruluşçu rəssamı Marina Mahmudova, musiqi tərtibatçısı Şaiq Qardaşovdur.



Birhissəli səhnə işində obrazları Lalə Qurbanova, Elnur Hacıyev, Ramella Rzayeva, Arzu Məmmədrzayeva, Kəmalə Səfərova, Diana Cəfərova, Samir Babayev, Lena Şixbalayeva canlandırırlar.

Böyüklərə ehtiram, eləcə də davranış qaydalarına riayət edilməsi ilə bağlı tərbiyəvi məsələlərin ayrı-ayrı qəhrəmanların başına gələn ibrətamiz macəralarla önə çıxarıldığı tamaşa balacalar tərəfindən maraqla qarşılanıb.

***




Məktəblilərin payız tətili günlərinə hazırlıq məqsədilə Qax Dövlət Kukla Teatrında düşündürərək əyləndirən daha bir tamaşanın premyerası olub.

Yazıçı-dramaturq Vüqar Haqverdiyevin "Qarınqulu ayı balası" tamaşası balaca teatrsevərlərlə görüşüb.

Birhissəli kukla tamaşasının quruluşçu rejissoru Araz Mehrablı, quruluşçu rəssamı Fidan Səbrili, musiqi tərtibatçısı Nicat Fətəliyevdir.

Teatrda həmçinin məşhur dramaturq Vladimir Orlovun "Qızıl cücə" nağılının masaarxası məşqlərinə başlanılıb.

Xeyirxahlıq, dostluq hisslərini aşılayan tamaşanın quruluşçu rejissoru Araz Mehrablı, quruluşçu rəssamı Mayis Abdullayev, musiqi tərtibatçısı Nicat Fətəliyevdir.

Tamaşa ilin sonunadək təqdim ediləcək.

# Dövlət müstəqilliyimiz – ən böyük sərvətimiz

Bölgələrdə 18 Oktyabr – Müstəqilliyin Bərpası Gününə həsr olunmuş tədbirlər təşkil edilib.





Xaçmaz Rayon İcra Hakimiyyəti və Quba-Xaçmaz Regional Mədəniyyət İdarəsinin (RMİ) birgə təşkilatçılığı ilə Xaçmaz rayon Heydər Əliyev Mərkəzində "Müstəqilliyimiz əbədidir, dönməzdir!" adlı tədbir keçirilib.

Qeyd olunub ki, 1918-ci il mayın 28-də yaradılan Azərbaycan Xalq Cümhuriyyətinin ömrü qısa olsa da, tariximizdə şanlı iz qoyub. 1991-ci il oktyabrın 18-də Azərbaycan dövlət müstəqilliyini bərpa edərək Cümhuriyyətin varisi olduğunu bir daha dünyaya bəyan edib. Müstəqilliyin ilk illərində xalqımız yenidən onu itirmək təhlükəsi ilə üzləşib, böyük siyasi təcrübəyə malik olan Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə bu təhlükə sovuşub. Ölkəmizdə davamlı sabitlik və inkişafın təməli qoyulub.





Tədbirdə əlamətdar günə həsr olunmuş videoçarx nümayiş etdirilib, məktəblilər ədəbi-bədii kompozisiya ilə çıxış ediblər.

***

Biləsuvar rayon Heydər Əliyev Mərkəzi, Mərkəzi Kitabxana, Tarix-Diyarşünaslıq Muzeyi, Salyan Dövlət Rəsm Qalereyası, Heydər Əliyev Mərkəzi, Mərkəzi Kitabxana, Tarix-Diyarşünaslıq Muzeyi, Neftçala Dövlət Rəsm Qalereyası və Heydər Əliyev Mərkəzində Müstəqilliyin Bərpası Gününə həsr olunmuş sərgi, açıq dərs və digər tədbirlər keçirilib.

Çıxışlarda dövlət quruculuğu istiqamətində görülən böyük işlərdən və Ümummilli lider Heydər Əliyevin tarixi xidmətlərindən bəhs edilib, respublikamızın iqtisadi və mədəni sahələrdə qazandığı nailiyyətlərdən danışılıb.

***

Yardımlı rayon Heydər Əliyev Mərkəzində "Dövlət müstəqilliyimiz – ən böyük sərvətimiz!" mövzusunda tədbir təşkil edilib. Ümummilli liderə həsr olunan "Dahi şəxsiyyət" sənədli filmi nümayiş olunub.

***

Lənkəran Mərkəzi Kitabxanasında "Müstəqillik yollarında uğurlu addımlar" mövzusunda tədbir keçirilib. Tədbirdə iştirakçıların bu günün tarixi mahiyyəti haqqında çıxışları dinlənilib. Bədii hissədə şagirdlər vətənpərvərlik ruhunda şeirlər söyləyiblər.

Qəni Vəliyev adına Lənkəran şəhər Mədəniyyət Mərkəzində keçirilən tədbirdə "Müstəqillik yollarında" adlı videoçarx nümayiş etdirilib. Direktor Anar Kəkayev müstəqillik tariximiz haqqında söz açıb. "Babalar" xor kollektivi, Mamusta Mədəniyyət evi və Münəvvər Kələntərli adına şəhər klubunun bədii qiraətçilərinin ifasında şeirlər səsləndirilib, mahnılar ifa olunub.

***

Qazax-Tovuz RMİ-nin tabeliyində fəaliyyət göstərən mədəniyyət müəssisələrində Müstəqilliyin Bərpası Günü ilə əlaqədar silsilə tədbirlər keçirilib.

Tədbirlərdə bildirilib ki, müstəqil müasir Azərbaycan dövləti Ümummilli lider Heydər Əliyevin şah əsəridir. Dahi siyasətçinin dövlətçilik yolunu uğurla davam etdirən Prezident İlham Əliyev tərəfindən ölkəmizin hərtərəfli inkişafı təmin edilib.

***

Müstəqilliyin Bərpası Günü münasibətilə Şəki-Zaqatala, Qarabağ, Gəncə-Daşkəsən və Şərqi Zəngəzur RMİ-lərin tabe müəssisələrində də silsilə tədbirlər təşkil olunub.

**Hazırladı: N.Məmmədli**

## Ağsu qoruğu Türkiyədə konfransda təmsil olunub



İstanbul Universitetində 15-17 oktyabr tarixlərində keçirilən "Mədəni irsin konservasiyasında gənclər – YOCOCU" IX beynəlxalq konfransında ölkəmiz də təmsil olunub.

Konfrans Beynəlxalq YOCOCU Assosiasiyası (Roma) və İstanbul Universitetin təşkilatçılığı, Mədəni Mülkiyyətlərin Qorunması və Bərpasının Öyrənilməsi üzrə Beynəlxalq Mərkəz (ICCROM) və bir sıra təşkilatların, o cümlədən Azərbaycandan "Miras" Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin dəstəyi ilə gerçəkləşib. Tədbirə 20-dən çox ölkədən 120-dək alim və tədqiqatçı qatılıb.

"Mədəni irs strategiyaları: innovativ muzeylər, təhsil və qiymətləndirmə" adlı birinci bölmədə "Orta Əsr Ağsu Şəhəri" Dövlət Tarix-Mədəniyyət Qoruğunun direktoru Şölə Bayramova "Ağsu qoruğu: arxeoloji irsin təqdimatı" mövzusunda məruzə edib. O, arxeoloji irsin mühafizəsi məsələlərinə toxunub, Ağsu qoruğunda aparılan son arxeoloji qazıntılar və qoruğun tarix-mədəniyyət abidələrindən danışıb.

Ağsu arxeoloji ekspedisiyasının rəisi professor Qafar Cəbiyev Azərbaycan arxeologiyası, Qarabağın arxeoloji abidələrinin öyrənilməsi, erməni vandalizminin nəticələri haqqında geniş məlumat verib.

Konfransın yekununda "Miras" İctimai Birliyinin sədri Fariz Xəlilli Beynəlxalq YOCOCU Assosiasiyasının "Mədəni irsin yaşıl konservasiyası" VI beynəlxalq elmi-praktiki konfransının 2025-ci ildə Şuşada keçirilməsi təşəbbüsü ilə çıxış edib və təklif assosiasiyanın idarə heyətinə təqdim olunub.

## Ramiz Mirişlinin 90 illiyi Gəncədə qeyd edilib

Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyasında görkəmli bəstəkar, Xalq artisti Ramiz Mirişlinin (1934-2015) 90 illiyinə həsr olunmuş konsert keçirilib.



Filarmoniyanın Xalq çalğı alətləri orkestrinin müşayiəti, Xəyal Qəhrəmanovun bədii rəhbər və dirijorluğu ilə Əməkdar mədəniyyət işçisi Mehparə Cəfərova, solistlər Samirə Hacıyeva, Zaminə Mustafayeva, Samir Məmmədov, Azər Verdiyev, Xəyal Əliyev bəstəkarın "Arazım", "İlk sevgi", "Qızlar bulağı", "Dedi tələsmə", "Küsüb məndən", "Doğma diyarım", "Həyat, söylə, sən kiminsən?", "Bir könül sındırmışam", "Azərbaycan – dünyam mənim" mahnılarını səsləndiriblər.

Konsert proqramı tamaşaçılar tərəfindən böyük rəğbətlə qarşılanıb.



# Şuşada Azərbaycan Bəstəkarlar İttifaqının səyyar plenumu

Azərbaycan Bəstəkarlar İttifaqı 90 illik zəngin tarixə malikdir. Bu tarix milli bəstəkarlıq məktəbimizin banisi dahi Üzeyir Hacıbəylinin adı və fəaliyyəti ilə bağlıdır. Bu mənada ittifaqın hər bir üzvü dünən olduğu kimi, bu gün də Üzeyir bəyin ruhuna minnətdardır.

90 illik yubileyini qeyd edən Bəstəkarlar İttifaqı Üzeyir bəyin doğma yurdu Şuşada səyyar plenum keçirməklə sanki öz bayramlarını qeyd etdilər. Bəli, bu əsl bayram idi. Azad, firavan, xoşbəxt Şuşada. Şuşa da, elə biz də xoşbəxtik. Tanrı bizə belə müqəddəs və gözəl bir məkan bəxş edib. Şuşaya isə onun uğrunda canından keçən mərd, cəsur Vətən övladları.

Gözəllikləri bir çox şairlərin misralarına, bəstəkarların mahnılarına bəzək olan Şuşanın yeni tarixi 2020-ci ilin 8 noyabrından – otuzillik işğaldan azad edildiyi gündən başlanır. Ali Baş Komandan İlham Əliyev və onun rəhbərliyi altında rəşadətli Ordumuzun igidləri xalqımıza bu Zəfər tarixini bəxş etməklə Şuşaya da yeni həyat verdilər.

İndi hər bir azərbaycanlı öz sevincini azad Şuşa ilə bölüşməyə can atır. Azərbaycan Bəstəkarlar İttifaqının üzvləri də 90 illik yubileylərini Şuşada qeyd etməklə həm özləri sevindilər, həm də Şuşanı yeni əsərləri ilə sevindirdilər.

14-15 oktyabr tarixlərində Şuşada Azərbaycan Bəstəkarlar İttifaqının səyyar plenumu keçirildi.

***

Plenumun ilk günü "Şuşa" hotelinin Üzeyir Hacıbəyli salonunda konfransla başladı.

Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Aydın Kərimov çıxış edərək qonaqları salamladı, onlara Şuşada aparılan yeni quruculuq işləri barədə məlumat verdi və başda ittifaqın sədri Xalq artisti, professor Firəngiz Əlizadə olmaqla bütün üzvləri 90 illik yubiley münasibətilə təbrik etdi.

Professor Firəngiz Əlizadə çıxış edərək əvvəlcə dahi Üzeyir bəyin doğulub, boya-başa çatdığı bu müqəddəs diyarda olmağın nə qədər şərəfli olduğunu qeyd etdi. Bu qüruru bizə yaşadan Ali Baş Komandana və onun rəhbərliyi ilə Şuşanı eləcə də, işğal altındakı digər torpaqlarımızı azad edən rəşadətli Silahlı Qüvvələrimizə minnətdarlığını ifadə edən Firəngiz Əlizadə Bəstəkarlar İttifaqının keçdiyi 90 illik tarixdən də öz açdı.

Sonra Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin müşayiəti və dirijor, Xalq artisti Fəxrəddin Kərimovun idarəsi ilə konfrans iştirakçılarına səslənən, sözləri və musiqisi Firəngiz Əlizadəyə aid olan "Zəfər marşı" videoformatda təqdim olundu.

Qələbə müjdəli musiqidən sonra konfrans digər çıxışlarla davam etdi.



Xalq artisti, bəstəkar Sərdar Fərəcov "Şuşanın musiqi salnaməsi", Əməkdar incəsənət xadimi, professor Gülnaz Abdullazadə "Üzeyir Hacıbəyli və Azərbaycan Bəstəkarlar İttifaqı", Əməkdar incəsənət xadimi, professor Akif Quliyev "Şanlı Qələbəyə həsr olunan musiqi əsərləri" mövzuları ilə çıxış etdilər.

İttifaqın katibi Əməkdar incəsənət xadimi, professor Zemfira Qafarova, Xalq artisti Aygün Səmədzadə, Əməkdar incəsənət xadimi, professor Hacər Babayeva, professor Mina Hacıyeva, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Güllü İsmayılova, Əməkdar artist, dosent Vüqar Camalzadə, Əməkdar incəsənət xadimi, professor Məmmədağa Umudov, bəstəkar İlham Azmanlı və digər üzvlər fikir və mülahizələrini bölüşdülər.

Bu sətirlərin müəllifi isə yeni ərsəyə gətirdiyi "Şuşa professional musiqidə" kitabı haqqında məlumat verdi. Məcmuəyə bəstəkarlarımızın Şuşaya həsr etdikləri müxtəlif janrda əsərləri daxildir. İdeya müəllifi Xalq artisti Firəngiz Əlizadə, redaktoru Əməkdar incəsənət xadimi Gülnaz Abdullazadə olan kitabda toplanan əsərlər üç dövrü əhatə edir: Şuşanın çal-çağırlı ilkin dövrü, işğal altında olan dövrü və 44 günlük müharibədən sonrakı azad Şuşanın musiqidə tərənnümü. Bu mənada A.Rzayeva, S.Ələsgərov, Ə.Abbasov, E.Sabitoğlu, V.Adıgözəlov, S.İbrahimova, F.Əlizadə, C.Abbasov və digər bəstəkarların əsərləri kitabda əksini tapıb. Əsərlərin not yazıları ilə bərabər, onların təhlilləri də verilib.

Maraqlı çıxışlarla yaddaqalan konfransdan sonra Nəzrin Aslanlının rəhbərliyi ilə Dövlət Simli Kvartetinin konserti oldu. Onların ifasında Ü.Hacıbəyli, Q.Qarayev, F.Əmirov və F.Əlizadənin əsərləri səsləndi. İttifaqın üzvlərindən sənətşünaslıq üzrə fəlsəfə doktorları Pikə Axundova "Salam, Şuşa" və Sevda Məmmədli isə "Laçın balladası" əsərlərini ifa etdilər.

***

Plenumun 2-ci günü də unudulmaz, sevinc dolu hisslərlə yadda qaldı.

Əvvəlcə Şuşadakı Yaradıcılıq Mərkəzinin əməkdaşları ilə görüş, "Heydər Əliyev və Qarabağ" sərgisinə baxış keçirildi. Direktor Fəxrəddin Hacıbəyli mərkəzin fəaliyyəti barədə məlumat verdi. Firəngiz Əlizadə Bəstəkarlar İttifaqının layihələri əsasında nəşr olunan "İlham Əliyev və musiqi mədəniyyəti", "Heydər Əliyev və musiqi mədəniyyəti" və digər kitabları mərkəzə hədiyyə etdi.

Səyyar plenumun xüsusi anlamlı məqamı Üzeyir bəyin ev-muzeyinin ziyarəti oldu. Bu müqəddəs ocaq nümayəndə heyətini çox təsirləndirdi. Prezidentin Şuşadakı xüsusi nümayəndəsinin müavini Elşad Əliyev ittifaqın üzvlərini maraqlı eksponatlarla tanış etdi.

Daha bir ziyarət ocağı isə Azərbaycan vokal sənətinin banisi ölməz Bülbülün Şuşadakı ev-muzeyi oldu.

Bununla da səyyar plenum öz işini başa çatdırdı, Bəstəkarlar İttifaqının üzvləri xoş hisslərlə Bakıya qayıtdılar. Əminik ki, bu hisslər, Şuşa ilə bağlı zəngin təəssürat onların yeni əsərlərində də əksini tapacaq.

**Səadət Təhmirazqızı**
**Əməkdar mədəniyyət işçisi**

# Rəssam Xəlil Əliyevin 70 illiyi münasibətilə sərgisi açılıb

Azərbaycan Rəssamlıq Akademiyasının Muzey-sərgi kompleksində tanınmış rəssam Xəlil Əliyevin 70 illik yubileyinə həsr olunmuş fərdi sərgisinin açılışı olub. Oktyabrın 16-da keçirilən tədbirdə təhsil ocağının rəhbərliyi, professor-müəllim heyəti iştirak edib.





Akademiyanın rektoru Xalq rəssamı Natiq Əliyev çıxış edərək Xəlil Əliyevin təkcə memar kimi deyil, eyni zamanda rəssamlığın müxtəlif sahələrində də fəal şəkildə yaradıcılıqla məşğul olmasını yüksək qiymətləndirib. Rəssamın memarlıq ixtisasında təhsil alan tələbələrə dərs dediyini qeyd edən rektor fərdi sərgisi münasibətilə təbriklərini çatdırıb, yeni yaradıcılıq uğurları arzulayıb.

Xalq rəssamları – akademiyanın elm və yaradıcılıq işləri üzrə prorektoru Fuad Salayev, beynəlxalq əlaqələr üzrə prorektor Səlhab Məmmədov, muzey-sərgi kompleksinin direktoru Əməkdar incəsənət xadimi Lalə Eldarova Xəlil Əliyevin rəngkarlıq və keramika işlərinin ideya-sənətkarlıq məziyyətlərindən danışıblar. Qeyd olunub ki, onun yaradıcılıq nümunələrinin əsasında sevgi və səmimiyyət dayanır.

Xəlil Əliyev çıxış edərək yaradıcılığına göstərilən diqqətə görə sərginin təşkilatçılarına və iştirakçılara minnətdarlığını bildirib. O, həyat yoldaşı, Geyim dizaynı kafedrasında dərs demiş dosent Sevil Əliyevanı yada salıb, sərginin bu sənət ocağında təşkil olunmasından, yəqin ki, onun ruhunun da şad olduğunu vurğulayıb.

Sonra tədbir iştirakçıları sərgi ilə tanış olublar.

Sərgidə Xəlil Əliyevin qrafika, rəngkarlıq və keramikadan ibarət müxtəlif növ və janrları əhatə edən 110 əsəri nümayiş olunur.

Azərbaycan Rəssamlar İttifaqı və Azərbaycan Memarlar İttifaqının üzvü olan rəssamın yaradıcılığında monumental və dekorativ-tətbiqi sənət əsas yer tutur. Bununla yanaşı, o, qrafika və rəngkarlıq əsərlərinin də müəllifidir. Onu da bildirək ki, Bakı Metropoliteninin "28 May" (1990-cı illər), "Sahil" (1993) və "Nəriman Nərimanov" (1994) stansiyalarının mozaik tərtibatında Xəlil Əliyev də iştirak edib.

# ADMİU müəllimlərinin beynəlxalq uğuru

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin (ADMİU) Musiqi sənəti fakültəsi oktyabrın 15-də Beynəlxalq Muğam Mərkəzində Xalq artisti, ustad tarzən Vamiq Məmmədəliyev və ADMİU-nun Aşıq sənəti kafedrasının müdiri Əməkdar mədəniyyət işçisi Samirə Əliyevanın beynəlxalq uğuruna həsr olunmuş tədbir keçirib.



ADMİU-nun rektoru Ceyran Mahmudova çıxışında qeyd edib ki, bu il iyulun 27-də Mədəniyyət Xadimləri Beynəlxalq Məsləhət Şurasının IV iclasında yeni "Arirang Ustadları"nın (Arirang Masters) fəxri siyahısı təsdiq olunub. 14 ölkədən 20 namizədin təsdiq olunduğu siyahıda ölkəmizi universitetin professoru, Xalq artisti Vamiq Məmmədəliyev və Aşıq sənəti kafedrasının müdiri Samirə Əliyeva təmsil ediblər. Onlar mədəni irsin qorunması və təbliğində müstəsna töhfələrinə görə bu fəxri nominasiyaya layiq görülüblər.

Rektor hər iki əməkdaşı bu münasibətlə təbrik edib, yeni nailiyyətlər arzulayıb.

Mədəniyyət nazirinin müşaviri Cahangir Səlimxanov Azərbaycan incəsənətinin bu cür mötəbər beynəlxalq platformada təmsil edilməsinin önəmini vurğulayıb.

Sonra incəsənət ustalarına beynəlxalq sertifikatlar təqdim edilib.

Vamiq Məmmədəliyev sevincini tədbir iştirakçıları ilə bölüşüb, göstərilən diqqətə görə Mədəniyyət Nazirliyinə, ADMİU-nun rəhbərliyinə öz təşəkkürünü bildirib.

ADMİU-nun Musiqi tarixi və nəzəriyyəsi kafedrasının müdiri professor Kamilə Dadaşzadə hər iki sənətkarın yaradıcılıq özəlliklərindən danışıb.

Sonda ADMİU-nun müəllim və tələbələrinin ifasında bədii proqram təqdim olunub.

# Tarixi Zəfərə sənət töhfəsi – "Qarabağnamə" simfonik balladası

Sözləri Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru akademik Rafael Hüseynova, musiqisi Xalq artisti Faiq Sücəddinova məxsus "Qarabağnamə" adlı simfonik ballada ərsəyə gəlib.

Simfonik ballada haqqında məlumat verən akademik Rafael Hüseynov bildirib ki, solist, xor və simfonik orkestrin ifası üçün nəzərdə tutulmuş bu əsər Zəfərimizin növbəti ildönümünə hədiyyə olacaq. Əsər Xalq artisti Yalçın Adıgözəlovun rəhbərlik etdiyi simfonik orkestrin ifasında təqdim olunacaq, solo hissəsini Əməkdar artist Ramil Qasımov ifa edəcək.

Gözəl Qarabağımızın tarixi, başından keçənlər, bu füsunkar məkanın məşhur insanlarının hekayətləri "Qarabağnamə" adı verilmiş silsilə kitablarda əbədiləşib. Mirzə Adıgözəl bəyin, Mirzə Camal Cavanşirin, Mir Mehdi Xəzaninin, Mirzə Yusif Qarabağinin, Rzaqulu bəy Mirzə Camal oğlunun, Mirzə Rəhim Fənanın, Həsən İxfa Əlizadənin, Həsənəli Qaradağinin "Qarabağnamə"ləri bu gün bizə yaxın əsrlər içərisindəki Qarabağımızın yox olmuşlarını aydın görməyə imkan verir. Söz yox ki, yeni Qarabağ, xüsusən də Zəfər yolunu keçmiş Qarabağın tarixi barədə hələ bundan sonra da cild-cild kitablar yazılacaq. "Qarabağnamə" sərlövhəli tarixi əsərlərimiz vardı, indi musiqimizin də öz "Qarabağnamə"si olacaq. Niyyətimiz və istəyimiz "Qarabağnamə" simfonik balladasının Zəfər Günü astanasında səslənməsidir", – deyə Rafael Hüseynov qeyd edib.

# Dövlət Film Fondunda Rza Təhmasibin xatirə gecəsi

Bu il Xalq artisti, görkəmli kinorejissor, aktyor, pedaqoq Rza Təhmasibin (1894–1980) anadan olmasının 130 illiyidir.



Oktyabrın 16-da Azərbaycan Dövlət Film Fondunda sənətkarın xatirə gecəsi keçirilib.

Tədbir çərçivəsində Rza Təhmasibin həyat və yaradıcılığını əks etdirən fotosərgi açılıb.

Azərbaycan Dövlət Film Fondunun direktoru Əməkdar incəsənət xadimi Cəmil Quliyev görkəmli sənətkarın yaradıcılıq yoluna qısa nəzər salıb. O, qonaqları Xalq artisti Leyla Bədirbəylinin fondun arxivində saxlanılan əlyazmalarında R.Təhmasib haqqında xatirələri ilə tanış edib.

Əməkdar incəsənət xadimləri, kinoşünaslar Aydın Kazımzadə, Ayaz Salayev, Əməkdar incəsənət xadimi, teatrşünas, professor İlham Rəhimli və kinoşünas Şəhla Əmirli rejissorun kino və teatr fəaliyyəti haqqında danışıblar.

Tədbirdə Rza Təhmasibin vaxtilə Dövlət Film Fondunun arxivinə təhvil verilmiş kinoxronikası və rejissor Musa Bağırovun onun haqqında 1966-cı ildə çəkdiyi "İncəsənət veteranı" filmi təqdim olunub.

# Xalq tətbiqi sənətinin ən çox yayılmış növü

## Beynəlxalq konfransda tikmə sənəti ilə bağlı maraqlı məruzələr dinlənildi



*əvvəli səh. 1-də*

Mədəniyyət nazirinin müşaviri Cahangir Səlimxanov qədim irsin yaşadılması və gələcək nəsillərə ötürülməsində muzeylərin mühüm rolunu vurğuladı. Dedi ki, bu cür beynəlxalq tədbirlər ölkələr arasında mədəni əlaqələri daha da gücləndirir, maraqlı birgə layihələrin həyata keçirilməsi üçün yeni ideyaların yaranmasına, təkliflərin irəli sürülməsinə vəsilə olur.

C.Səlimxanov xalça və tikmələrdə naxış və ənənələrin qorunması və muzeylərdə təbliği istiqamətində fikirlərini bölüşdü. O, Azərbaycanın Laçın şəhərinin 2025-ci il üçün "MDB-nin mədəniyyət paytaxtı" elan edildiyini diqqətə çatdıraraq bildirdi ki, gələn il bu çərçivədə həyata keçiriləcək tədbir və layihələr də mədəni əməkdaşlığa mühüm töhfə olacaq.

### Dünya xalqlarının bədii tikmə ənənələri

Konfrans Özbəkistan Təsviri İncəsənət Qalereyasının direktoru professor Kamola Akilovanın moderatorluğu ilə "Dünya xalqlarının bədii tikmə ənənələri" mövzusunda sessiya ilə davam etdi.

İrina Jukova "Rusiya naxışlarda: güləbətin tikmə sənətinin ənənələri və müasirliyi", Mira Məmmədxanova "Azərbaycan Milli Xalça Muzeyi kolleksiyasından XVII–XVIII əsrlərə aid iki ədəd unikal tikmə haqqında", Qazaxıstandan Bakıtgül Nurqojina "Tətbiqi sənətdə dekor etnik kimliyin əlaməti kimi" mövzularında məruzə etdilər.

Konfrans çərçivəsində Azərbaycan Milli Xalça Muzeyinin kolleksiyasına yeni daxil olan XVII əsrin sonu – XVIII əsrin əvvəlinə aid iki bədii tikmə nümunəsi də təqdim edildi. Hər iki nadir tikmə nümunəsi Qarabağ sənətkarlarının əl işidir. Kətan, yun və ipəkdən hazırlanmış birinci tikmə örtmə texnikasındadır. Bu tikmə parça üzərinə çəkilmiş rəsm vasitəsilə icra olunub. Tikmənin ara sahəsi qəhvəyi rəngdədir və mərkəzində memarlıqda geniş istifadə olunan üç böyük, iki kiçikölçülü səkkizguşəli medalyon təsvir edilib.

Digər eksponat isə Qarabağda hazırlanmış tikmənin fraqmentidir. Ara sahənin tünd-qəhvəyi rəngli yerliyində Qarabağın "Xətai" çeşnisinin bir hissəsi təqdim edilir. Kompozisiyaya xas ağ yerlikli qolların üzərində budağabənzər qarmaqvari elementlər, onların ətrafında isə stilizə edilmiş həndəsi elementlər və qoruyucu məna daşıyan əjdaha təsvirləri verilib.

### Lokal tikmə məktəbləri

Konfransın "Müxtəlif ölkələrin lokal tikmə məktəbləri" adlı sessiyasında özbək mütəxəssis Kamola Akilova "Teymurilər dövründə Orta Asiya tikmələri: bədii xüsusiyyətlərin formalaşması problemi (miniatürlər və yazılı mənbələr əsasında)", Polina Korotçikova "Dövlət Şərq Muzeyinin kolleksiyasında Qacar tikmələri" (Rusiya), ölkəmizdən Könül Zeynalova "Azərbaycan Milli İncəsənət Muzeyinin tikmə kolleksiyası" mövzusunda məruzə etdilər.

Kamola Akilova qeyd etdi ki, Teymurilər dövrünün miniatür sənət əsərlərində zadəganların geyimlərində, at bəzəklərində, interyer və çadır bəzəklərində xüsusilə qızılı tikmələri görmək mümkündür. Onlar ornamental dekorasiyanın özünəməxsusluğunu, Teymurilər dövrünün imperiya üslubunu və yerli xüsusiyyətlərini çatdıraraq Şərqin digər bölgələrinin bədii ənənələrinin təsirini əks etdirirlər.

Könül Zeynalova bildirdi ki, Azərbaycan Milli İncəsənət Muzeyinin fondunun tikmə bölməsində 1724 mühafizə vahid eksponatlardan ibarət zəngin kolleksiya var.

Rusiyanın Dövlət Şərq Muzeyinin baş elmi işçisi Polina Korotçikova da muzeyin fondlarında zəngin tekstil kolleksiyasının qorunduğunu və bunun ən az öyrənilmiş hissəsinin Qacarlar dövrü tikmələri və toxuculuq məmulatları olduğunu dedi. Bildirdi ki, bu nümunələr muzeyə 1920–1930-cu illərdə müxtəlif toplulardan daxil olub və hazırda "Süqutun təmtərağı: Qacarlar dövrünün incəsənəti" sərgisində nümayiş etdirilir. Bunların arasında İranın Kirman, Rəşt və Yəzd bölgələrinin tikmə məktəblərini qeyd etmək olar. Bu naxışların təyinatı müxtəlifdir: onların arasında Qacar gerbi olan məxmər panel də maraq doğurur.

### Bərpa və konservasiya məsələləri

"Tikmələrin bərpa və konservasiyası" mövzusunda üçüncü sessiyada (moderator Yalçın Səlimov) İranə Allahverdiyeva "Azərbaycanda bədii ipək məmulatlarının bərpa problemləri" mövzusunda məruzə etdi. O, bədii ipək nümunələrinin elmi bərpa və konservasiyası, Mədəniyyət Nazirliyi Muzey Sərvətləri və Xatirə Əşyalarının Elmi Bərpa Mərkəzində bu istiqamətdə görülən işlər və bərpa təcrübəsindən danışdı.



Olqa Konoplyovanın "Belarus Respublikası Milli Rəssamlıq Muzeyinin kolleksiyasından tikmə ilə bəzədilmiş eksponatların bərpası" və Yuliya Xrebtova, Darya Klüçnikova və Nataliya Sinin (hər üçü Rusiyadan) "Dövlət Bərpa üzrə Elmi-Tədqiqat İnstitutunun Tətbiqi incəsənət əsərlərinin elmi bərpası şöbəsində tikmə elementli muzey eksponatlarının bərpası" mövzularında məruzələri də maraqla dinlənildi. Sessiyaların sonunda məruzələrlə bağlı fikir mübadiləsi aparıldı.

### Ənənəvi geyim bəzəyi

Beynəlxalq konfrans oktyabrın 17-də işini davam etdirdi. Aida Alimovanın moderatorluğu ilə "Tikmə ənənəvi geyim bəzəyi kimi" adlı sessiyada Tamta Qrdzelişvili "Gürcüstanda ənənəvi geyimlərin bəzəyi – tikmə (Gürcüstan İncəsənət Sarayının eksponatları əsasında)", Sofya Şaşunova "XIII-XIV əsrlərdə Monqol imperiyasının geyimlərində tikmə", Aleksandr Uşakov "Milli geyimdə tikmə: naxışlar, dekor, simvolika" (Orenburq Qubernator Muzeyinin milli geyim kolleksiyası əsasında), Zarema İbrahimova "Xan qızı, şairə Xurşidbanu Natəvanın unikal əl işləri" mövzularında məruzələr dinlənilib.

Həmin gün "Tikmə sənəti müasirlik kontekstində" adlı sessiya da reallaşdı. İrina Jukovanın moderatoru olduğu sessiyada İqor Malkiel "İnklüziv sərgilər kontekstində tikmə sənəti", Binafşa Nodir "Daşkənd tikmə məktəbi: unutqanlıqdan yeni şəfəqə", Dilarə Kamalova "Tatar tikmələrinin müasir interpretasiyası" (N.İ.Feşin adına Kazan Rəssamlıq Məktəbi tələbələrinin əl işləri əsasında), Anna Potapova "Fond əşyası – muzey suveniri. Leninqrad vilayətinin muzeylərində tikmə", Turan Həsənova "Qurama sənətinin ifadəsi" mövzusunda məruzə etdilər.

Konfransın yekununda iştirakçılara sertifikatlar təqdim olundu.

***

Oktyabrın 18-də – konfransın sonuncu günündə qonaqlar Azərbaycan Milli Xalça Muzeyinin fondunda qorunan bədii tikmə nümunələrinə baxdılar. Həmçinin muzeyin Bərpa, Ənənəvi texnologiya və Uşaq muzeyi şöbələri ilə tanışlıq oldu.

**L.Azəri**

# Əməkdaşlıq və təcrübə mübadiləsi üçün mühüm imkan

"Tikmə sənəti" beynəlxalq elmi konfransı gedişində bəzi iştirakçıların tədbirlə bağlı qısa fikirlərini öyrəndik.

Qırğızıstanlı mütəxəssis Aida Alimova: "İlk növbədə, yüksək təşkilatçılığa və peşəkar mütəxəssislərin iştirakına görə təşəkkür edirəm. Bütün muzeylər üçün mühüm olan qoruma, bərpa, qədim əl sənəti olan tikmənin populyarlaşdırılması mövzusunda fikir mübadiləsi aparırıq. Mən artıq ikinci dəfədir Azərbaycan Milli Xalça Muzeyindəyəm. Muzeyin yenilikləri, kolleksiyanın dolğunlaşması bir muzey əməkdaşı kimi məni heyran edir. Bu da onu göstərir ki, xalqınız qədim tarixə malikdir. Konfrans bizə bir daha əməkdaşlıq etmək və tədqiqatlarımızı bölüşmək imkanı yaradır".

Rusiya Dövlət Şərq Muzeyinin əməkdaşı Yekaterina Şinkaryova: "Belə bir konfransda iştirak etmək mənim üçün çox maraqlıdır. Elə ilk gündən bizim kolleksiyamızla bağlı maraqlı məqamları aşkar etdik. Məlum oldu ki, muzeylərimizdə ölkələrimizlə əlaqəli eksponatlar qorunur. Eyni zamanda konfransda ümumi ideya, fikir və problemlər müzakirə edilir, birgə işlər barədə fikir mübadiləsi aparırıq. Bu gün Rusiyada tikmə sənəti inkişaf edir, bacarıqlı ustalarımız bu sənəti unudulmağa qoymurlar".

N.İ.Feşin adına Kazan İncəsənət Məktəbinin direktor müavini Dilarə Kamalova: "Dekorativ-tətbiqi sənətin tikmə növünün bu gün beynəlxalq konfrans səviyyəsində təbliğ edilməsindən məmnunuq. Konfransda elmi əhəmiyyətli məruzələr təqdim olunur. Öyrənilməli, təcrübəni bölüşməli məqamlar çoxdur. Mən bu konfransda dəri üzərində tikmə təcrübəsi ilə bağlı məruzə ilə çıxış edəcəyəm. Təbii dəri üzərində tikmə sənətinin də maraqlı mövzu olduğunu düşünürəm".

**Lalə**

# İrəvan Azərbaycanlı Pedaqoji Məktəbinin 100 illik yubileyi qeyd olunub

Bu il milli maarifçilik tariximizdə məxsus yeri və rolu olan İrəvan Azərbaycanlı Pedaqoji Məktəbinin 100 illik yubileyidir.





Oktyabrın 17-də Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) beynəlxalq əlaqələr üzrə prorektor professor Mahirə Hüseynovanın təşəbbüsü ilə İrəvan Azərbaycanlı Pedaqoji Məktəbinin 100 illik yubileyinə həsr olunmuş konfrans keçirilib. Bu barədə universitetdən məlumat verilib.

Qonaqlar əvvəlcə foyedə Qərbi Azərbaycan ictimai-siyasi mühitini və İrəvan Azərbaycanlı Pedaqoji Məktəbinin fəaliyyət dövrünü əks etdirən fotosərgi ilə tanış olub, Filologiya fakültəsi tələbələrinin ifasında rəqslərə tamaşa edib, şeirlər dinləyiblər.

Tədbiri açan ADPU-nun prorektoru, Qərbi Azərbaycan İcmasının Dərələyəz mahalı Keşkənd rayonu üzrə icma rəhbəri professor Mahirə Hüseynova İrəvan Azərbaycanlı Pedaqoji Məktəbinin fəaliyyəti, keçdiyi şərəfli inkişaf yolu haqqında danışıb, məktəbin görkəmli məzunlarının adlarını xatırladıb.

Diqqətə çatdırılıb ki, 1924-cü il oktyabrın 15-də İrəvanda azərbaycanlı maarifpərvər ziyalıların, qeyrətli alim və müəllimlərin səyləri ilə yaradılan tədris ocağı erməni şovinizmi əhatəsində milli məktəblərimizin pedaqoji kadrlarla təmin edilməsində müstəsna rol oynayıb.

ADPU-nun rektoru professor Cəfər Cəfərov və Qərbi Azərbaycan İcması idarə heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli milli-tarixi irsimizin tədqiqi və təbliği, xüsusən Qərbi Azərbaycan həqiqətlərinin təbliği baxımından bu kimi tədbirlərin əhəmiyyətini vurğulayıblar. Bu istiqamətdə ADPU-da bir çox layihələrin həyata keçirildiyi, Qərbi Azərbaycan Araşdırmalar Mərkəzinin uğurla fəaliyyət göstərdiyi qeyd olunub.

Filologiya üzrə fəlsəfə doktoru, dosent Cəlal Allahverdiyev, Qərbi Azərbaycan İcmasının üzvlərindən professorlar Vahid Novruzov, Əvəz Ələkbərov, akademik Abel Məhərrəmov, Milli Məclisin deputatları Hikmət Babaoğlu, Səyyad Aran, Ramil Həsən, Məlahət İbrahimqızı və başqaları çıxış edərək İrəvan Azərbaycanlı Pedaqoji Məktəbinin Qərbi Azərbaycanda milli maarifçilik mühitinin inkişafında rolu, görkəmli məzunlarının elm, təhsil, mədəniyyət, dövlət quruculuğu sahələrindəki fəaliyyətləri barədə söz açıblar.

Tədbirdə həmçinin ADPU-nun Filologiya fakültəsinin dekanı filologiya üzrə fəlsəfə doktoru Könül Həsənova və dosent Cəlal Allahverdiyevin müəllifi olduqları "Tarixi təhsil ocağı: İrəvan Azərbaycanlı Pedaqoji Məktəbi" kitabı təqdim olunub. Kitabda 1924–1948-ci illərdə fəaliyyət göstərən və Qərbi Azərbaycandakı milli məktəblərimizin pedaqoji kadrlarla təmin olunmasında müstəsna rolu olmuş məktəbin yaranması, inkişafı və məzunlarından bəhs edilir.

ADPU tələbələrinin hazırladıqları İrəvan Azərbaycanlı Pedaqoji Məktəbi haqqında slayd-film də maraqla qarşılanıb.

# Əməkdar incəsənət xadimi, musiqişünas Süreyya Ağayeva vəfat edib



Azərbaycan mədəniyyətinə və musiqişünaslıq elminə itki üz verib. Tanınmış musiqişünas alim, sənətşünaslıq üzrə fəlsəfə doktoru, Əməkdar incəsənət xadimi Süreyya Ağayeva 2024-cü il oktyabrın 18-də, ömrünün 78-ci ilində vəfat edib.

Süreyya Xosrof qızı Ağayeva 29 aprel 1947-ci ildə Bakıda anadan olub. Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasını (indiki Bakı Musiqi Akademiyası) bitirib. 1979-cu ildə Moskvada ilk dəfə Orta əsrlər yazılı mənbələri – əlyazmaların araşdırılması nəticəsində "Əbdülqadir Marağayi və onun musiqi-nəzəri irsi (XIV–XV əsrlər)" mövzusunda dissertasiya müdafiə edərək sənətşünaslıq üzrə elmlər namizədi (fəlsəfə doktoru) alimlik dərəcəsi alıb.

Azərbaycan musiqişünaslıq elminin formalaşması və inkişafına dəyərli töhfələr verən alim Orta əsrlər musiqi sənətimizin, o cümlədən muğamın tədqiqatçısı kimi mövzuya dair çoxsaylı elmi əsərlərin müəllifidir. Görkəmli musiqişünasın muğam sənəti, etnomusiqişünaslıq elmi üzrə əsərləri Azərbaycan, rus, türk, fars, ingilis dillərində çap olunub.

Süreyya Ağayeva 1978-ci ildən Azərbaycan Bəstəkarlar İttifaqının üzvü idi. İttifaqın sədri Xalq artisti, professor Firəngiz Əlizadə ilə birgə "Azərbaycan muğam ensiklopediyası" ("Энциклопедия азербайджанского мугама") nəşrinin həm müəllifi, həm də tərtibçisi olub. Ensiklopediya musiqişünas alimlər üçün böyük mənbədir.

Müxtəlif beynəlxalq konfranslarda iştirak edən, Azərbaycan musiqişünaslıq elminin dünyada tanınmasında mühüm xidmətləri olan alim UNESCO-nun nəzdində Ənənəvi Musiqi üzrə Beynəlxalq Şuranın (İCTM), Beynəlxalq Etnomusiqişünaslar Cəmiyyətinin üzvü idi. Müxtəlif illərdə Bakı Musiqi Akademiyasında, Türkiyənin Hacettepe və Bilkent universitetlərində müəllim işləyib, AMEA-nın Memarlıq və İncəsənət İnstitutu Musiqi tarixi və nəzəriyyəsi şöbəsinin aparıcı elmi işçisi, Bakıda keçirilən "Muğam aləmi" simpoziumlarının elmi koordinatoru və nəşr olunan materialların redaktoru olub.

Musiqi mədəniyyəti sahəsində xidmətlərinə görə "Azərbaycanın Əməkdar incəsənət" xadimi fəxri adına layiq görülən musiqişünas, TÜRKSOY-un "Türk dünyası mədəniyyətinin və incəsənətinin inkişafında xidmətlərinə görə" medalı ilə də təltif olunmuşdu.

Azərbaycan Bəstəkarlar İttifaqının sədri Firəngiz Əlizadə, ittifaqın idarə heyəti və üzvləri görkəmli alim, pedaqoq, gözəl insan Süreyya Ağayevanın vəfatı ilə bağlı ailəsinə, yaxınlarına dərin hüznlə başsağlığı verir.

Allah rəhmət eləsin.

# Əbədiyyət yolçusu

## Ərtoğrol Cavidin anadan olmasının 105 illiyinə



Oktyabrın 22-də dahi şair-dramaturq Hüseyn Cavidin oğlu Ərtoğrol Cavidin (1919–1943) anadan olmasının 105 illiyi tamam oldu. Bu istedadlı gəncin zəkası, bacarıqları, intellekti müxtəlif istiqamətlərdə təzahür etmişdi – o, rəssam, şair, folklorşünas, tərcüməçi, musiqişünas, bəstəkar idi.

Ərtoğrol Cavid cəmi 24 il yaşadı... Cavidlər ailəsinin başına gətirilənlər, məhrumiyyətlər onsuz da qısa olan bu ömrü bir az da çətinləşdirmişdi. Təlatümlü hadisələrin ağuşunda gəncliyini doya-doya yaşaya bilməyən Ərtoğrol bütün bunlara baxmayaraq, təhsilini axsatmamış, tədqiqatlar aparmış, yazıb-yaratmışdı. Bu çalışqanlığın, zəhmətkeşliyin nəticəsidir ki, fiziki həyatı qısa olsa belə, yaradıcılıq, sənət ömrü, əsərlərinin həyatı uzun olmuş, hər zaman tədqiqatçıların diqqətini cəlb etmişdir.

Valideynin istedadı övladında dincəlir, deyiblər. Amma Ərtoğrol Cavidin nümunəsində biz bunun əksinin şahidi oluruq. O, Hüseyn Cavidin oğlu olması ilə həmişə fəxr etmiş, lakin atasının şöhrətinə arxalanmamış, öz istedadının hesabına hörmət və rəğbət qazanmışdı. Bir çox hallarda imzasını sadəcə, "Ərtoğrol" kimi yazmasının səbəbi də öz bilik və bacarığı sayəsində ad qazanmaq, təsdiq olunmaq istəyi idi. O, usanmadan çalışmış, atasına layiq övlad kimi yetişmişdi.

1940-cı illərin əvvəllərində Azərbaycan Dövlət Konservatoriyasında Ərtoğrol Cavidlə birgə təhsil alan bəstəkar Cahangir Cahangirov onun həyat mövqeyini sonralar belə xatırlayırdı: "Ərtoğrol tələbələrin içərisində ən yüksək mədəniyyətlisi, təvazökarı, sakiti idi. Çox gözəl piano çalırdı. Mən sonra bildim ki, Ərtoğrol Azərbaycanın dahi dramaturqu, şairi Hüseyn Cavidin oğludur. O özü bu barədə qətiyyən bir söz deməzdi".

Hələ Azərbaycan Dövlət Pedaqoji İnstitutunda təhsil aldığı illərdə ona dərs demiş akademik Məmməd Cəfər tələbəsi haqqında deyirdi: "Mən ona qibtə edirdim. O yaşda o qədər geniş biliklərə malik olması təqdirədici idi. Əlbəttə, yaşla biliyi ölçməzlər. Amma, hər halda, o, heyranedici idi, onun çalışqanlığı, mütaliəsi və hərtərəfli inkişaf etmiş adam olması çox yaxşı təəssürat yaradırdı".

1941-ci ildə Dövlət Pedaqoji İnstitutunu bitirdikdən sonra Bakı Konservatoriyasının Bəstəkarlıq fakültəsinə daxil olan Ərtoğrol haqqında müəllimi – dahi bəstəkar, konservatoriyanın rektoru Üzeyir Hacıbəyli də təxminən eyni düşüncələrdə idi.

O vaxt konservatoriyada Musiqi elmi-tədqiqat kabinetinin fəaliyyətinə cəlb edilmiş Ərtoğrol barədə kabinet rəhbəri, görkəmli müğənni Bülbül də çox yüksək fikirdə olmuşdur. Ərtoğrol bu kabinetin işində çox böyük həvəslə iştirak etmiş, Bülbül ilə bərabər folklor nümunələrini toplamaq məqsədilə Azərbaycanın müxtəlif rayonlarına təşkil edilən ekspedisiyalara qoşulmuş, 200-dən çox el havasını nota köçürmüş, öz yaradıcılığında onlardan faydalanmış və gözəl əsərlər yaratmışdı.

Ərtoğrol Cavid hərtərəfli gənc idi: o, müxtəlif əsərlər, pyeslər yazmaqla bərabər, mahnılar da bəstələmiş, rəsmlər çəkmiş, tərcümələr etmişdi. Onun yaradıcı əməyinin nəticəsi olan nə varsa, belə deməyə əsas verir ki, Ərtoğrol Cavidin vaxtsız vəfatı istər ədəbiyyatımız, istər musiqi sənətimiz, istərsə də təsviri sənətimiz üçün böyük itki olmuşdur.

İllər ötmüş, zaman keçmiş, obrazı gözümüz önündə daim bir gənc kimi canlanan istedadlı şair, rəssam, folklorşünas və musiqi tədqiqatçısı Ərtoğrol Cavidin də ölümsüzlük yaşının üstünə yaş gəlmiş və o bizim zəmanənin illəri ilə yaşa dolduqca, daha da sevilmiş, qəlblərdə taxt qurmuşdur. Bu gün onun irsi ilə yenidən tanış olduqca hər dəfə yeni nəsə kəşf edir, gənc ikən həyatdan köçməsinə baxmayaraq, milli-mənəvi yaddaşımızda yaşlanmış, sanki qocaman bir şəxsiyyət kimi qarşımıza çıxmış bu dahidən nəsə öyrənməyə çalışırıq.

Cavidsevərlər üçün 2024-cü il respublikanın elmi-mədəni həyatında bir çox yaddaqalan, sevindirici məqamlarla yanaşı, Ərtoğrol Cavidin 105 illik yubileyi ilə də əlamətdardır.

Bu yubileyin işığında Ərtoğrol Cavid irsinin tədqiqi və təbliği naminə görülən işləri, qısaca da olsa, yada salmaq istərdik. Hüseyn Cavidin Ev-Muzeyinin kollektivi olaraq Ərtoğrol Cavidin həyat və yaradıcılığını özündə əks etdirən, tərtibçisi olduğumuz "Azərbaycan qeyri-maddi mədəniyyət abidələri və Ərtoğrol Cavid" adlı 13 cildlik külliyyat arayaərsəyə gətirilmişdir. Bu seriyanın ilk nəşri "Ərtoğrol Cavidin musiqi əsərləri" adlı kitab (tərtibçisi G.Babaxanlı) olmuşdur. Ərtoğrol Cavidin 100 illik yubileyi münasibətilə nəşr olunmuş not nəşrinə bəstəkarın "Eşq olsun", "Sonatina", "9 variasiya" (fortepiano üçün), "Noktürn", "Quşlar", "Ballada", "Səninlə olaydım", "Sevgili yar gəlmiş idi", "Gəl" və s. əsərləri toplanmışdır. Seriya "Cavid ocağının istedadla nurlanmış övladı", "Ərtoğrol Cavid və Qarabağ" və "Ərtoğrol Cavid və Nizami irsi" kimi kitabların çapı ilə davam etdirilmişdir.

Muzey tərəfindən Ərtoğrol Cavidin 105 illiyi münasibətilə də iki nəşr hazırlanmışdır: bunlardan biri "Cavidlər" adlı albom-təqvim, digəri isə "İyirmi dörd illik əbədiyyət" adlı kitabdır. Bununla yanaşı, muzeydə bir sıra yubiley tədbirləri, sərgi və görüşlər təşkil olunmuş, Ərtoğrol Cavid haqqında materiallar oxucuların ixtiyarına verilmişdir.

**Gülbəniz Babaxanlı**
**Hüseyn Cavidin Ev-Muzeyinin direktoru**
**Əməkdar mədəniyyət işçisi**




# Bitən festivaldan qalan təəssürat

Oktyabrın birinci ongünlüyü ölkəmizdə kino sahəsinin inkişafına dəstək, dünya kino bazarına çıxışı təşviq etmək məqsədilə bir neçə mövcud festivalı (bədii, sənədli, animasiya filmləri üzrə) öz çatiri altında bir araya gətirən "Baku Cinema Breeze" (BCB) adlı beynəlxalq festivalla yadda qaldı.

2-8 oktyabr tarixlərini əhatə edən, Mədəniyyət Nazirliyinin təşkilatçılığı və Kino Agentliyinin (ARKA) dəstəyi ilə reallaşan kino həftəsi bu sahəyə bağlı insanlarda müəyyən ümidverici təəssürat doğurdu. Bütün hallarda bizim üçün ilk olan bu formatda tədbir sözsüz ki, böyük əhəmiyyətə malikdir. Bunu beynəlxalq təcrübəyə malik kino mütəxəssisləri də deyir.

Azərbaycan Prodüserlər Gildiyasının sədri **Fikrin Bektaşi** hesab edir ki, BCB vahid kinematoqrafiya festivalı konsepsiyası olaraq çox qiymətlidir: "Bu gün dünya kino istehsalı və onun festival ənənəsi çoxdan oturuşmuş bir sistem üzərindən idarə olunur. Statistikaya görə, dünyada ümumilikdə 1500-ə qədər film festivalı var. Bu mənada ölkə festivallarını bir çətir altında birləşdirən və festivallar festivalı funksiyasını daşıyan bu tədbir fərqli cəhətləri ilə də maraqlıdır".

Fikrin bəy deyir ki, ümumiyyətlə, festivallar kateqoriyalarla seçilir və bu kateqoriyalar Beynəlxalq Prodüserlər Assosiasiyası (FİAPF) tərəfindən verilir. Bu xüsusda festivalın davamlılığının təminatı, müəllif hüquqlarının olması, kinomarketin olması və s. mühüm şərtlərdir. "A" kateqoriyalı festivallarda əsasən filmlərin istehsalı və distribusiyası üçün beynəlxalq əməkdaşlıq imkanları xüsusi yer tutur. Belə festivallar çərçivəsində bir qayda olaraq pitçinq yolu ilə filmlərə dəstək/maliyyə imkanları, birgə istehsal (koproduksiya), beynəlxalq satış və distribusiya kimi ayrıca platformalar təşkil olunur. Belə platformaların beynəlxalq əhəmiyyəti onların məcmu kino sənayesinə verdikləri töhfədədir.

Bakıda keçirilən BCB festivalına gəlincə, F.Bektaşi təşkilat komitəsinin irimiqyaslı bir tədbirin keçirilməsinə nail olduğunu deyir: "Nümayiş olunan filmlərin bir çoxu premyera idi və öz tamaşaçı kütləsini toplaya bildi. Yerli lokasiya və xidmətlərin, bir çox istehsalçı şirkətin də tədbirdə iştirakı, xarici ekspert və prodüserlərin BCB-yə qatılması müsbət təcrübədir. Təbii ki, ilk dəfə belə geniş tədbirin keçirilməsində müəyyən problemlər də ola bilər. Bunlar təhlil olunmalı və növbəti illərdə nəzərə alınmalıdır. Prodüserlər Gildiyasının dəvəti ilə ölkəmizə gələn Berlin Film Festivalının keçmiş direktoru Diter Kosslikin fikrini bu yerdə diqqətə çatdırmaq istərdim: "Azərbaycan yeni məkan olaraq dünya kinosu üçün çox maraqlı yerdir, burada imkanlar genişlənməkdədir, "Breeze" də ad olaraq çox cəlbedicidir".

BCB-də film komissiyalarına aid paneldə moderator olan F.Bektaşidən ölkəmizdə bu sahədəki təcrübə barədə də soruşdum. Mütəxəssis deyir ki, Azərbaycanda hazırda bir neçə prodüser şirkəti xarici istehsalçılara təşkilati xidmətlər göstərir. Bu, bir qayda olaraq çətin, amma müəyyən həddə gəlirli biznes sahəsi hesab edilir. Burada gəlirə yanaşı risklər də mövcuddur, amma dövlətin dəstəyi olduqda, bir çox riskləri azaltmaq olar. Digər tərəfdən, Avropa təcrübəsində çəkiliş məkanlarının cəlbediciliyi ilə yanaşı, dövlət tərəfdən müəyyən güzəştlərin verilməsi xarici kino istehsalçılarının ölkəyə gəlməsini stimullaşdırır.





Ölkədəki mövcud film komissiyalarının rentabelliyi və standartlara uyğunluğuna gəlincə, gildiya rəhbəri qeyd edir ki, bir çox ölkələrdə olduğu kimi, bizdə də bəzi problemlər var və onları film komissiyaları vasitəsilə həll etmək olar: "Bunlar yerli çəkiliş və aktyor heyətinin xarici dili bilməsi, digər tərəfdən, kino çəkilişi heyətinin ilboyu istehsalatda iştirak etməsi və təcrübə mübadiləsinin aparılması, çəkiliş texnikasının müasirləşdirilməsi kimi məsələlərdir. Eyni zamanda nəzərə alınmalıdır ki, film istehsalında iştirak edən çəkiliş heyəti yataqxana, qida və nəqliyyat, yerli dəstək və s. xidmətlərdən də istifadə edir, bu da film komissiyalarına və ümumiyyətlə, kino istehsalına yeni dayanaqlı tərəfdaşlar cəlb edir".

Nəzərə alaq ki, bir çox xarici ölkələrdə çəkilən filmlər məhz müəyyən lokasiyaların, tarixi abidələrin, arxitektura nümunələrinin və s. ekrana düşməsi turizm sektoruna, yeni xidmətlərin yaradılmasına və regionların inkişafına da öz töhfəsini verir. Bu mənada yerli şirkətlərin sayı və rəqabət imkanları artırılmalıdır.

***

"Film Bridge Azerbaijan" şirkətinin direktoru, rejissor, prodüser **Emin Quliyev** də BCB barədə nikbin təəssüratdadır. Festivalın gələn il öz coğrafiyasını daha da genişləndirəcəyinə ümidvar olduğunu deyən E.Quliyev burada kinomarketin, görüşlərin təşkilini, mütəxəssislərin cəlbini yaxşı ideya kimi dəyərləndirir.

Kinoprodüserdən dünya kino istehsalatı və marketinqi prosesi üçün işlək mexanizmlərin çoxdan formalaşdığını nəzərə alaraq bu mənada bizim hazırkı durumumuzu da xəbər aldım. "Azərbaycanda son illər aktiv olaraq xarici şirkətlər gəlir və çəkilişlər aparır. Bunlar əsasən Rusiya, Ukrayna, Serbiya, ən çox isə Pakistan və Hindistan şirkətləridir. Təkcə bizim şirkət vasitəçiliyi ilə 50-dən çox xarici layihə olub ki, onların da çoxu filmlə bağlıdır. Konkret vəziyyətə gəlincə, deyim ki, biz irəliyə doğru gedirik və layihələr artır. Bu tempi aşağı salmasaq, ölkəmizə kino çəkmək üçün ABŞ-dan, Avropadan gələnlər də olacaq. Düzdür, Avropadan işlər var, amma azdır" deyən həmsöhbətim əlavə edir ki, bu xüsusda dünya təcrübəsindən çox şey öyrənməliyik.

Müxtəlif ölkələrdə təşkil olunan bu formatlı layihələrdə davamlı iştirak edən E.Quliyev bu mənada əsas təcrübəsini də xarici layihələr sayəsində qazandığını deyir.

Təəssürat və rəylərdən də göründüyü kimi, BCB festivalı xüsusilə əcnəbi tərəfdaşlarla işləyən ölkəmiz üçün böyük əhəmiyyət kəsb edir. Üstəlik, bu festival çətirinin gələcəkdə say və coğrafiya baxımından daha geniş olacağına ümid də yaranır. Təki müstəqil şirkətlər də bu işdə maraqlı tərəf kimi çıxış edərək rəqabət hissini aydın formalaşdıra bilsinlər.

**Həmidə Nizamiqızı**

# Onu “isidə” bilməyən kino...

## Süreyya Qasımova – 90



Məncə, o, milli kinomuzda sənət bioqrafiyasını daha da zənginləşdirə bilərdi. Amma gənclik cilvəsi, sevgi ilə qurulan ailə və rejissorların daha çox peşəkar kino təhsillilərinə üstünlük verməsi onun da kino taleyini məhz ilk mərhələdə, özü də uğurun başlanğıcında bitirib.

Buna baxmayaraq, o, “Qızmar günəş altında”, “Kölgələr sürünür”, “Aygün” tammetrajlı və “Yeni il gecəsində” qısametrajlı bədii filmləri ilə şaqraq səsini, saf təbəssümünü, gözəl çöhrəsini yaddaşımıza yaza bilib.

Bəli, söhbət Lətif Səfərovun “Qızmar günəş altında” və İsmayıl Əfəndiyevlə Şua Şeyxovun “Kölgələr sürünür” bədii filmlərinin birbirindən fərqli qəhrəmanları – Gülpəri və Afəti canlandıran Süreyya Qasımovadan gedir. Bu il anadan olmasının 90 ili tamam olan, kino tariximizdən fraqment kimi keçən bu tiflisli alman dili müəllimi özü haqqında söz yeri qoyub.

Görkəmli kinoşünas Aydın Kazımzadənin “Bizim “Azərbaycanfilm” kitabında aktrisa haqqında yer alan məlumatlar və Dövlət Film Fondunun fotoarxivi işığında onun ömür və yaradıcılıq yoluna nəzər salırıq.

Süreyya Məcid qızı Qasımova 1934-cü ilin 28 sentyabrında qədim Tiflis şəhərində dünyaya göz açıb. 1953-cü ildə şəhərdəki qadın rus orta məktəbini əla qiymətlərlə bitirib, eyni ildə Azərbaycan Xarici Dillər İnstitutunun (indiki ADU) Alman dili fakültəsinə daxil olub.

Uşaqlıqdan təşkilatçılıq bacarığı, idmana marağı ilə seçilib. Beş ilə yaxın Gürcüstan SSR-in gənclərdən ibarət yığma basketbol komandasının ən fəal oyunçusu, sonra isə kapitanı olub. Sevimli məşğuliyyətini tələbəlik illərində də davam etdirən Süreyyanın gələcək həyat yoldaşı – “Neftçi” futbol komandasının üzvü Kamil Eynullayevlə (1932-1988) tanışlığı da bu dövrə təsadüf edib.

Tələbəlik dövründə Bakıda keçirilən bir sıra elmi-praktik konfranslarda iştirak edib, alman və Azərbaycan ədəbiyyatının ali və orta məktəblərdə tədrisi ilə bağlı məruzələr hazırlayıb.

Süreyya Qasımovanın yaxşı muğam boğazı da varmış. Düzdür, o bunu peşəkar səviyyədə davam etdirməsə də, tələbələrin olimpiadasında ifa etdiyi xalq mahnıları dahi Bülbülün diqqətini cəlb edir və ona “Balaca Şövkət” (Şövkət Ələkbərova – red.) deyə xitabına səbəb olur.

Xatirələrində bu məqama toxunan aktrisa demişdi: “Böyük vokalçıdan bu sözləri eşidəndən sonra elə zənn etdim ki, hər şeyi atıb musiqi ilə məşğul ola bilərəm. Amma sonradan ailəmizin, xüsusən anamın məndən “Səndən yaxşı müəllim olacaq. Oxuyub bura qayıdarsan, uşaqlara təhsil verərsən” sözünü göz önümə gətirərək “Yox, Süreyya” deyib bu bacarığımı elə həvəskar kimi də başa vurdum...”.



Amma bəzən istedadın qarşısına sədd çəkmək mümkün olmur. 1958-ci ildə Moskvada təşkil edilən VI Ümumdünya Mahnı və Rəqs Olimpiadasına yollanan istedadlı azərbaycanlı tələblər sırasında onun da adı vardı. Ora bir solist kimi dəvət olunan Süreyya başda olmaqla Azərbaycandan gedən digər ifaçıların çıxışları yüksək qiymətləndirilmiş, Azərbaycan Ali Soveti Rəyasət Heyətinin fəxri fərmanı ilə təltif edilmişdi. Həyatda heç nə təsadüfi olmur. Hətta olmuşsa da, burada bir İlahi yönləndirmə, hansısa qüvvənin iradəsi ön plana çıxır. Lap tiflisli qızın kolxozçulardan bəhs edən filmin təsadüfən seçilən qəhrəmanı olması kimi.

### “Bu ki anadangəlmə Gülpəridir”

Bəli, onun kinoya gəlişi təsadüf nəticəsində baş verib. İnstitutun III kurs yekun imtahanından da “əla” qiymət alıb sevincini kurs yoldaşları ilə bölüşən bu çılğın gənc film üçün yeni simalar axtarışına çıxan rejissor köməkçisinin diqqətini cəlb edir. Süreyya xanımın xatirələrinə baş vurduqda bu məqamı necə sevinclə xatırladığını görürük: “Yenə qızlarla sevinc gülüşləri saçırdıq. Əlaçı çıxacağım “5”i almışdım. Bu zaman bir qadın mənə yaxınlaşıb mehriban səslə “Qızım, kinoya çəkilmək istəyirsən?” sualını verdi. Bir az duruxdum. Qızlarımız mənim əvəzimə sevincək “hə” dedilər. Sözsüz ki, mən də razılaşdım. Amma bunu evimizdə deyə bilməzdim. Düzdür, valideynlərim müasir düşüncəli insanlar idilər. Amma incəsənətdə olmağımı istəmirdilər. Amma gec idi. Mən ürəyimin səsinə qulaq asaraq artıq razılıq vermişdim. Sonradan bildim ki, bu xanım “Qızmar günəş altında” filminin rejissor köməkçisi Lida Berladir imiş.

Vədələşdiyimiz kimi ertəsi gün filmin quruluşçu rejissoru Lətif Səfərovla görüşdüm. O, çəkiliş haqqında söhbət etdi. Çox sakit, nəzakətli və hər zaman fikirli bir insan kimi, sözsüz ki, sevgi ilə xatırladığım Lətif müəllimlə tanışlığım həyatımı tamamilə dəyişdi...”.

“Qızmar günəş altında” filmi Həsən Seyidbəylinin “Kənd həkimi” povesti əsasında 1957-ci ildə lentə alınıb. Ekran əsərində əsas obrazlar gənc kadrlar üçün nəzərdə tutulduğu üçün sınaq çəkilişlərinə qatılan gənclərin oyun tərzləri müəlliflər tərəfindən xüsusilə saf-çürük edilirdi. Bu gənclərin çoxunu – əsərin qəhrəmanı gənc həkim Aydın rolunu ifa edən Əkbər Fərzəliyevi, komsomolçu qızlardan Gülpərini oynayan Süreyya Qasımovanı, Nərminəni canlandıran Tofilə Ələsgərovanı (filmə çəkilən il orta məktəbi bitirib), Gülnaz rolunu oynayan Sara Manafovanı (televiziya studiyasında diktor), Fatma rolunda çıxış edən Z.Gəraybəyovanı (filmə çəkilən il 10-cu sinifdə təhsil alırmış) tamaşaçılar ilk dəfə olaraq ekranda görüblər.

Müəyyən çəkilişlərdən sonra Həsən Seyidbəyli Süreyyanın debütü haqqında “Bu ki anadangəlmə Gülpəridir” deyir.

“Qızmar günəş altında” Süreyyanın kinoda ilk işi idi və sözsüz ki, qısa zamanda uğur qazanmasına, tanınmasına səbəb oldu. Süreyya xanımın xatirələrindən oxuyuruq: “Filmin çəkilişlərinə gedirdim, amma bunu anamdan gizlədirdim. Bir dəfə anam dayımla Moskvaya gedir. Birdən afişada şəklimi görür. Dayıma deyir ki, ay Cəfər, bir bax, bizim Süreyyaya necə oxşayır? Dayım gülür, sonra anama hər şeyi açıb danışır.



Bax, kino belədir, hamı tanıyır, bilir, sevir... Tək Gülpəri rolundan sonra mənə nə qədər şeir həsr ediblər. Düşünürəm ki, ikinci rolum da uğurlu oldu. Ən əsası, mən sevgi ilə, var qüvvəmlə oynadım. Rejissorun tələblərini olduğu kimi icra etdim”.

### Afət-Şəfiqə-Fəridə və son...

1958-ci ildə böyük ekrana çıxan “Kölgələr sürünür” filmində də Süreyya Qasımova rol alır. Macəra janrlı dramatik filmdə arxeoloqların həyatından bəhs olunur. Ekran əsərində elmdə həqiqətlərin üzə çıxarılması naminə aparılan mübarizədən danışılır, müxtəlif yollarla alimlik adı almış, cəmiyyətimizə yad olan adamlar ifşa edilir.

Filmdə Afət rolu ilə tamaşaçı qarşısına çıxan Süreyya Qasımova nikbin, əzmkar və səmimiyyət dolu gənc tədqiqatçı obrazı ilə dövrünün gənclərini mübarizəyə səsləyir. Həvəskar aktrisanın tələbəlik dövrünə təsadüf edən gərgin çəkilişlər, müxtəlif səhnələrin ölkənin fərqli bölgələrində çəkilməsi onun təhsilinə mane olmur və əsas məramı əlaçılıqla diplom almaq olan Süreyya Qasımova 1958-ci ildə institutu yüksək göstəricilərlə bitirib elə orada da laborant vəzifəsində işə başlayır. Bir müddətdən sonra onu həmin kafedrada alman dilinin qrammatikası və leksikası üzrə müəllim təyin edirlər.

Süreyya xanımı biz sonradan tammetrajlı “Aygün” film-poemasında Şəfiqə rolunda görürük. Rejissor Kamil Rüstəmbəyov tərəfindən 1960-cı ildə ekranlaşdırılan bu filmdə hadisələr təzəcə ailə qurmuş iki gəncin münasibəti və taleyi ətrafında cərəyan edir.

Bəstəkarlıq fakültəsinin tələbələri Aygünlə (Nəcibə Məlikova) Şəfiqənin (S.Qasımova) dostluğu, xoş münasibəti, ən əsası da qadın kimi həmrəyliyi film boyu tamaşaçıda səmimi dostluğa inam ifadə edir.

Süreyya xanım “Yeni il gecəsində” adlı qısametrajlı bədii filmdə də çəkilib. 1958-ci ildə ekranlaşdırılan bu nümunə bəstəkar Rüstəmin evində baş verən yanğın hadisəsini ekrana daşıyır. Ssenari müəllifi və rejissoru Mirzə Mustafayev olan filmdə Süreyya xanım bəstəkar Rüstəmin (L.Məmmədbəyov) həyat yoldaşı Fəridə obrazındadır. Maarifləndirmə xarakterli film Dövlət Yanğından Mühafizə İdarəsinin sifarişi ilə çəkilib. Dövrün sevilən aktyorları Münəvvər Kələntərli, Lütfi Məmmədbəyov, Barat Şəkinskayanın rol aldığı film irihəcmli musiqi əsəri sifarişi alan və bütün həyatını, parlaq gələcəyini o musiqi nümunəsindən alacağı qonorara bağlayan gənc ailənin ümid və həyəcan dolu Yeni il axşamı yanğından xilas edilən musiqi partituralarından bəhs edir.

Yəqin ki, yuxarıdakı xronologiya sizin də diqqətinizi cəlb etdi. 4 film və bir-birinə yaxın illər. Vəssalam.

Beləcə, parlaq aktrisa ola biləcəyinə şübhə edilməyən Süreyya, sevgi ilə bağlandığı həyat yoldaşının istəyi ilə bir daha kinoya çəkilmir, bütün enerjisini tədrisə və gözünün ağı-qarası bircə oğlunun böyüməsinə həsr edir. Amma ömrünün sonunadək nə çəkildiyi filmlərin həyəcan dolu xoş xatirələri, nə də heç kimə etiraf edə bilmədiyi kinoaktrisa olmaq həsrəti onu tərk etmir.

Süreyya Qasımova 2005-ci ilin qızmar yay günündə, 23 iyul tarixində dünyasını dəyişir.

**Həmidə Nizamiqızı**

# Xanlıqlar zamanında pul dövriyyəsi

Bakı Mühəndislik Universitetində (BMU) Ümumi fənlər kafedrasının professoru Abbas Seyidovun “Azərbaycan xanlıqları: dövlətçilik rəmzləri, hüquq sistemi, pul dövriyyəsi və sikkə zərbi” monoqrafiyasının təqdimatı keçirilib.

BMU-dan bildirilib ki, tədbirdə çıxış edən kafedranın müdiri Hümeyra Mustafayeva Azərbaycanın dövlətçilik tarixinin mühüm hissəsini təşkil edən xanlıqlar dövrünün daha dərindən araşdırılmasının vacibliyindən danışıb. Qeyd edib ki, xüsusilə də uzun illər erməni işğalçıları tərəfindən dağıdılmış tarixi abidələrimizlə bağlı yeni tədqiqatlara ehtiyac var.

Müəllif Abbas Seyidov monoqrafiya haqqında məlumat verib, Azərbaycan xanlıqları dövrünü əhatə edən tarixi faktları diqqətə çatdırıb. XVIII əsrin ikinci yarısı, XIX əsrin əvvəllərində Azərbaycan ərazisində 20-dən artıq xanlığın olduğunu deyən alim xanlıqların dövlətçilik rəmzləri, inzibati idarəçilik və hüquqi sistemi, pul dövriyyəsi və sikkə zərbinə dair yeni, eləcə də ümumiləşdirilmiş materialların monoqrafiyada əksini tapdığını bildirib.

Çıxış edənlər Azərbaycan dövlətçilik tarixinin öyrənilməsi baxımından nəşrin tələbələr, tədqiqatçılar üçün dəyərli mənbə olduğunu vurğulayıblar. Bildirilib ki, Azərbaycan, rus və ingilis dillərində nəşr edilən kitaba müxtəlif muzeylərdə nümayiş olunan bayraq, şeşpər və digər əşyalarla yanaşı, kolleksiyaçı R.Rzayevin uzun illər topladığı, xanlıqlar dövrünə aid gümüş və misdən hazırlanmış numizmatik materiallar da daxil edilib.

# Folklor və ekoloji diskurs

Xəzər Universitetinin Dillər və ədəbiyyatlar departamentinin təşkilatçılığı ilə “Yaşıl dünya naminə həmrəylik ili” və COP29-a həsr olunmuş dəyirmi masa keçirilib.



Departamentin müdiri filologiya üzrə fəlsəfə doktoru, dosent Dilbər Zeynalova giriş sözündə qeyd edib ki, 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan olunması və COP29-un ölkəmizdə keçirilməsi humanitar və ictimai elmlərin də qarşısında mühüm vəzifələr müəyyənləşdirir.

Sonra filologiya üzrə fəlsəfə doktoru, dosent Hikmət Quliyev “Folklorik düşüncə və ekoloji diskurs: “Dirilik suyu axtarışı”ndan “Əbədi mütəhərrik” ideyasına” mövzusunda çıxış edib. Folklorşünas alim qeyd edib ki, yaşıl dünya çağırışları təkcə yaşadığımız fiziki aləmi deyil, həm də mənəvi aləmini əhatə etdiyindən burada sosial stereotiplər və inanclar üzərində formalaşan dəyərlərə xüsusi diqqət yetirmək lazımdır. “Ekofolklor, ənənəvi ekoloji bilik, yaşıl dünya” və “əbədi həyat, ölümsüzlük axtarışı və enerji ehtiyacı” mövzuları ətrafında danışan H.Quliyev xalq yaradıcılığında təbiətə pozitiv və neqativ münasibəti ifadə edən nümunələri diqqətə çatdırıb. Məruzədə insan-təbiət-mədəniyyət münasibətlərinə sosial-antropoloji folklorşünaslıq kontekstində yanaşmadan da bəhs edilib.

## Xatirə təqvimi — 21 – 24 oktyabr

### Azərbaycan

**21 oktyabr 1932** – Xalq şairi, ədəbiyyatşünas, ictimai xadim Xəlil Rza Ulutürk (Xəlil Rza oğlu Xəlilov; 1932 – 22.6.1994) Salyan rayonunun Pirəbbə kəndində anadan olub. 1988-ci ildə başlanan milli-azadlıq hərəkatında iştirak edib, 1990-cı ilin 20 Yanvar qırğınından sonra həbs edilib, Moskvada həbsxanada saxlanılıb. Kitabları: “Hara gedir bu dünya?”, “Məndən başlanır vətənim”, “Türkün dünyası” və s.

**21 oktyabr 1932** – Əməkdar mədəniyyət işçisi, aşıq Kamandar Həmid oğlu Əfəndiyev (1932 – 26.10.2000) Gürcüstanın Marneuli rayonunun Kürüstü Kəpənəkçi kəndində doğulub. 1987-ci ildə Tbilisidə Beynəlxalq xalq yaradıcılıq festivalının laureatı olub.

**21 oktyabr 1935** – Əməkdar elm xadimi, ədəbiyyatşünas, professor Fəridə Ağaəli qızı Vəlixanova (1935 – 4.9.2023) anadan olub. Azərbaycanda tərcüməşünaslıq elminin ilk tədqiqatçısıdır.

**21 oktyabr 1938** – Ədəbiyyatşünas alim, şair Əmin Abid (Əmin Mütəllib oğlu Əhmədov; 1898–1938) vəfat edib. Azərbaycan ədəbiyyatı tarixinə dair monoqrafiyaların, mili-azadlıq ruhlu şeirlərin müəllifidir. Repressiya qurbanı olub.

**21 oktyabr 1941** – Əməkdar incəsənət xadimi, aşıq Hüseyn Bozalqanlı (Hüseyn Cəfərqulu oğlu Quliyev; 1863-1941) vəfat edib. Tovuz rayonunun Bozalqanlı kəndində anadan olub.

**22 oktyabr 1919** – Bəstəkar Ərtoğrul Cavid (Rasizadə; 1919 – 14.10.1943) anadan olub. Böyük şair və dramaturq Hüseyn Cavidin oğludur. Romans və mahnılar bəstələyib. Azərbaycan xalq mahnılarını nota köçürüb.

**22 oktyabr 1920** – Nasir Məmməd Aranlı (Məmməd Salman oğlu Ağayev; 1920-1950) Ağcabədidə anadan olub.

**22 oktyabr 1921** – Azərbaycan xalçaçılıq sənətinin görkəmli nümayəndəsi, Xalq rəssamı Kamil Müseyib oğlu Əliyev (1921 – 1.3.2005) İrəvan şəhərində doğulub. “Füzuli”, “Nəsimi”, “Nizami” portret-xalçalarının müəllifidir.

**22 oktyabr 1929** – Tanınmış filosof, akademik Fuad Feyzulla oğlu Qasımzadə (1929 – 3.8. 2010) Bakıda doğulub. Böyük mütəfəkkir şair M.Füzulinin fəlsəfi dünyagörüşü ilə bağlı tədqiqatların müəllifidir.

**22 oktyabr 1940** – Tərcüməçi, publisist, Əməkdar jurnalist Mailə Balabəy qızı Muradxanlı (1940-2010) Salyan şəhərində anadan olub.

**22 oktyabr 1970** – Azərbaycanda kukla teatrının yaradıcılarından biri, aktyor, rejissor Molla Ağa Bəbirli (15.9.1905 – 1970) vəfat edib.

**22 oktyabr 1990** – Əməkdar artist Narınc Murad qızı Məlikova (1917-1990) vəfat edib. Füzuli və Ağdam teatrlarında aktrisa kimi fəaliyyət göstərib.

**22 oktyabr 2020** – Əməkdar mədəniyyət işçisi, şair İsmayıl Cabir oğlu Dadaşov (23.3.1957 – 2020) vəfat edib. “Azərbaycanfilm”də musiqi redaktoru işləyib.

**22 oktyabr 2021** – Xalq artisti, xanəndə Canəli Xanəli oğlu Əkbərov (10.3.1940 – 2021) vəfat edib. Opera tamaşalarında baş rollarda (Məcnun, Kərəm, Aşıq Qərib, Şah İsmayıl və s.) çıxış edib.

**23 oktyabr 1953** – Tanınmış xanəndə Səxavət Əmirxan oğlu Məmmədov (1953 – 30.9.1991) Ağdam rayonunun Abdal-Gülablı kəndində doğulub. Xalq mahnıları, muğam və təsniflərin mahir ifaçısı olub. Avtomobil qəzasında dünyasını dəyişib.

**23 oktyabr 2002** – Prezident Heydər Əliyev böyük şair və dramaturq Hüseyn Cavidin 120 illik yubileyi haqqında sərəncam imzalayıb.

**23 oktyabr 2022** – Əməkdar artist, ustad xanəndə Süleyman Cümşüd oğlu Abdullayev (14.2.1939 – 2022) vəfat edib.

**24 oktyabr 1882** – Böyük şair-dramaturq Hüseyn Cavid (Hüseyn Abdulla oğlu Rasizadə; 1882 – 5.12.1941) Naxçıvanda anadan olub. Azərbaycan ədəbiyyatında ilk mənzum dramların, tarixi-fəlsəfi pyeslərin (“İblis”, “Topal Teymur”, “Şeyx Sənan”, “Xəyyam” və s.) müəllifidir. 1938-ci ildə repressiya olunub, 1941-ci ildə Sibirdə sürgündə vəfat edib. 1982-ci ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə nəşi Vətənə gətirilərək Naxçıvanda dəfn olunub.

**24 oktyabr 1919** – Azərbaycan Xalq Cümhuriyyəti hökumət və parlament üzvlərinin iştirakı ilə Dövlət Teatrının rəsmi açılışı olub. Hökumətin 1918-ci il 9 oktyabr tarixli qərarına əsasən, teatr işi Xalq Maarifi Nazirliyinin sərəncamına verilmiş və mövcud truppalar əsasında Dövlət Teatrının təşkili tapşırılmışdı. Teatrın direktoru Qulamrza Şərifzadə, direktor müavini Zülfüqar Hacıbəyov idi.

**24 oktyabr 1923** – Tanınmış aktyor Dadaş Nadir oğlu Kazımov (1923-1992) Bakıda doğulub. 1956-cı ildən Musiqili Komediya Teatrında çalışıb, filmlərdə çəkilib.

**24 oktyabr 1928** – Xalq artisti, bəstəkar İbrahim Qurban oğlu Məmmədov (1928-1993) Bakıda doğulub. Müxtəlif janrlarda əsərlərin, uşaqlar üçün “Tülkü və Alabaş” opera-baletinin müəllifidir.

**24 oktyabr 1929** – Musiqişünas, sənətşünaslıq namizədi, Əməkdar müəllim Solmaz Cəlal qızı Qasımova (1929-2016) Bakıda doğulub. Bakı Musiqi Akademiyasının professoru olub.

**24 oktyabr 1929** – Ədəbiyyatşünas alim, professor Şəmistan Abdu oğlu Mikayılov (1929-2018) Gürcüstanın Bolnisi rayonu Faxralı kəndində doğulub. Ədəbiyyat dərsliklərinin müəllifidir.

**24 oktyabr 1931** – Əməkdar mədəniyyət işçisi Rimma Əli qızı Abdullayeva (1931-2017) Ağdam rayonunda doğulub. “Azərbaycanfilm” kinostudiyasında film direktoru vəzifəsində işləyib.

**24 oktyabr 1993** – Xalq artisti, ustad xanəndə, qəzəlxan-şair Hacıbaba Hüseynəli oğlu Hüseynov (15.3.1919 – 1993) vəfat edib. Çoxsaylı təsniflərin müəllifidir, istedadlı qəzəlxan kimi tanınıb.

**24 oktyabr 2002** – Bakıda Hüseyn Cavidin ev-muzeyinin açılışı keçirilib. Prezident Heydər Əliyev mərasimdə iştirak edib.

**24 oktyabr 2017** – Prezident İlham Əliyev böyük şair və dramaturq Hüseyn Cavidin 135 illik yubileyi haqqında sərəncam imzalayıb.

### Dünya

**21 oktyabr 1772** – İngilis şairi və filosofu Semyuel Kolric (Samuel Taylor Coleridge; 1772–1834) anadan olub.

**21 oktyabr 1833** – İsveçli mühəndis, ixtiraçı, Nobel mükafatlarının təsisçisi Alfred Nobel (Alfred Bernhard Nobel; 1833–1896) Stokholmda doğulub.

**21 oktyabr 1928** – Tatar əsilli Rusiya aktyoru Radner Zinyatoviç Muratov (1928–2004) anadan olub. Filmləri: “Uğur centlmenləri”, “Qızıl buzov” və s.

**22 oktyabr 1811** – Macar bəstəkarı Ferens List (Ferenc Liszt; 1811 – 31.7.1886) anadan olub. Məşhur əsərləri: “Faust” simfoniyası, “Macar” rapsodiyası, “Prelüdlər”.

**22 oktyabr 1870** – Rus yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1933) İvan Alekseyeviç Bunin (1870 – 8.11.1953) anadan olub. 1920-ci ildə Fransaya mühacirət edib. Əsərləri: “Qafqaz”, “Lənətlənmiş günlər”, “Arsenyevin həyatı”, “Günəş zərbəsi”, “Qaranlıq xiyabanlar” (hekayələr).

**22 oktyabr 1919** – İngilis yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (2007) Doris Lessinq (Doris Lessing; 1919 – 17.11.2013) İranın Kirmanşah şəhərində doğulub. Atası İranda ingilis ordusunun zabiti olub.

**22 oktyabr 1935** – Ukrayna şairi, publisist, ictimai xadim, SSRİ Dövlət mükafatı laureatlı Boris Oleynik (1935 – 30.4.2017) anadan olub.

**23 oktyabr 1920** – İtalyan uşaq yazarı Canni Rodari (Gianni Rodari; 1920–1980) anadan olub. “Çipollinonun sərgüzəştləri” əsəri ilə məşhurlaşıb.

**23 oktyabr 1844** – Alman rəssamı Vilhelm Leybl (Wilhelm Maria Hubertus Leibl; 1844–1900) anadan olub.

**23 oktyabr 1904** – Rus rəssamı və filosofu Svyatoslav Nikolayeviç Rerix (1904–1993) anadan olub.

**24 oktyabr 1882** – Macar bəstəkarı İmre Kalman (1882–1953) anadan olub. “Silva”, “Sirk şahzadəsi”, “Monmartrın bənövşəsi” operettalarının müəllifidir.

**24 oktyabr 1911** – Məşhur rus aktyoru, rejissor, SSRİ Xalq artisti Arkadi İssakoviç Raykin (1911–1987) anadan olub.

**24 oktyabr 1924** – Türk dilçi alimi və tarixçisi, İslam elmi, tarixi və mədəni irsi ilə bağlı tədqiqatlar müəllifi Fuat Sezgin (1924 – 20.6.2018) anadan olub.

**Hazırladı: V.Orxan**

# Ölkəmiz Frankfurt Kitab Yarmarkasında təmsil olunub

Almaniya Federativ Respublikasının Frankfurt şəhərində (Frankfurt am Main) 16-20 oktyabr tarixlərində keçirilən 76-cı Frankfurt Kitab Yarmarkasında (Frankfurter Buchmesse 2024) Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə ölkəmiz də xüsusi stendlə təmsil olunub.

Dünyanın ən böyük kitab nümayişi meydanı sayılan və Azərbaycanın da ənənəvi olaraq iştirak etdiyi Frankfurt yarmarkası bu il "Oxu. Düşün. Əlaqələndir" devizi ilə keçirilib. Sərgiyə 95 ölkədən 4 minə yaxın nəşriyyat və aidiyyəti qurumlar qatılıb. Fəxri qonaq ölkə İtaliya olub.

Mədəniyyət nazirinin müavini Səadət Yusifovanın rəhbərliyi ilə Azərbaycanın yazar və naşirlərdən ibarət nümayəndə heyəti sərgidə iştirak edib.

Milli stenddə 125 adda 230 nüsxə kitab ziyarətçilərə təqdim olunub. Stenddə "Xalq Bank"ın "Xalq əmanəti" layihəsi üzrə işıq üzü görən kitablar, "TEAS Press", "Hədəf Nəşrləri", "Qədim Qala" və digər nəşriyyatların çap məhsulları yer alıb.




Kitab işi sahəsində çalışan minlərlə mütəxəssisin görüş yeri olan Frankfurt sərgisi yeni əlaqələrin qurulması və təcrübə mübadiləsi üçün də mühüm platformadır.

Azərbaycan nümayəndə heyəti bir sıra işgüzar görüşlər keçirib.

Roma Milli Mərkəzi Kitabxanasının direktoru Stefano Campagnolo ilə görüşdə o, 2023-cü ilin sentyabrında Bakıda Azərbaycan Milli Kitabxanasının 100 illiyinə həsr olunmuş tədbirdə iştirakını məmnunluqla yada salıb. İki ölkənin kitabxanaları arasında əməkdaşlığın dərinləşdirilməsi, kitab mübadiləsi və birgə layihələrin həyata keçirilməsi barədə söhbət aparılıb.

Yarmarkanın açılış günü Türkiyə Mədəniyyət və Turizm Nazirliyinin nümayəndələri, İstanbul Ticarət Odası və Türkiyə Naşirlər Birliyinin üzvləri ilə də görüşlər olub, kitab və nəşriyyat işi sahəsində əməkdaşlıq məsələləri müzakirə edilib.

Qeyd edək ki, Prezident İlham Əliyevin diqqət və qayğısı ilə ölkəmizdə kitab sənayesi də uğurla inkişaf edir. Bu qayğının nəticəsində Azərbaycan beynəlxalq kitab sənayesinin bir hissəsinə çevrilib. Mədəniyyət Nazirliyi tərəfindən ölkəmizin bu sahədə uğurlarının beynəlxalq aləmdə tanıdılması diqqət mərkəzində saxlanılır. Azərbaycan məşhur kitab sərgilərində xüsusi stendlə təmsil olunur. Cari ildə də ölkəmiz bir neçə nüfuzlu kitab sərgisinə dəvət alıb. Azərbaycan noyabrın 2-dən 10-dək keçiriləcək 41-ci İstanbul Beynəlxalq Kitab Sərgisində "fəxri qonaq ölkə" kimi iştirak edəcək.

# Azərbaycanlı dirijor Qlinka adına müsabiqənin münsiflər heyətində



Rusiya Mədəniyyət Nazirliyi və Rusiya Prezidentinin Mədəni Təşəbbüslər Fondunun dəstəyi ilə Vokalçıların Mixail Qlinka adına XXVII Beynəlxalq Müsabiqəsi keçirilib.

Moskvanın "Zaryadye" konsert zalında 8-16 oktyabr tarixlərində keçirilən müsabiqə bu il görkəmli rus bəstəkarı Mixail İvanoviç Qlinkanın 220 və uzun illər müsabiqənin münsiflər heyətinə rəhbərlik etmiş opera müğənnisi İrina Arxipovanın 100 illik yubileylərinə həsr edilib.

Builki müsabiqənin 12 ölkədən 63 iştirakçısı olub.

Münsiflər heyətində Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının musiqi rəhbəri və baş dirijoru, Bakı Musiqi Akademiyasının dosenti Əməkdar artist Əyyub Quliyev də yer alıb.

Yarışmanın yekun turunda finalçıları Ə.Quliyevin dirijorluğu ilə Moskva Dövlət Simfonik Orkestri müşayiət edib.

Münsiflər heyətinin qərarına əsasən, I yerə Yekaterina Lukaş (Stanislavski Opera Teatrı), Otabek Nazirov (Özbəkistan), II yerə Yekaterina Bequnoviç (Novosibirsk Opera), Konstantin Fedotov (Novaya Opera), III yerə Yekaterina Savinkova (Mariinski Teatrı) və İvan Borodulin layiq görülüblər.

Qeyd edək ki, 1960-cı ildə əsası qoyulan M.Qlinka adına müsabiqənin Azərbaycanla bağlı tarixçəsi də var. 1987-ci ildə müsabiqə görkəmli vokalçı İrina Arxipovanın rəhbərliyi ilə Bakıda keçirilib. Həmin müsabiqədə Dmitri Xvorostovski və Olqa Borodina birinci yerə layiq görülüb.

# Türkmənistanda TÜRKSOY-un mədəniyyət tədbirləri

Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY tərəfindən 18–20 oktyabr tarixlərində Türkmənistanda tədbirlər keçirilib.

TÜRKSOY-un II Beynəlxalq Teatr Festivalı və rəsm sərgisi 2024-cü ildə qədim Anev (Anau; türkmən əlifbası ilə Änew) şəhərinin (paytaxt Aşqabadın 8-10 km-də yerləşir) "Türk dünyasının mədəniyyət paytaxtı" olmasına və türkmən şairi və mütəfəkkir Məhtimqulu Fəraqinin 300 illik yubileyinə həsr olunub.

Aşqabadda keçirilən teatr festivalı çərçivəsində yerli teatr sənətçiləri üçün ustad dərsləri də təşkil edilib.

Türkmənistan Təsviri İncəsənət Muzeyində açılan sərgidə isə TÜRKSOY-a üzv ölkələrin rəssamlarının əsərləri nümayiş etdirilib. TÜRKSOY-un yaydığı məlumata görə, sərgidə Azərbaycan, Qazaxıstan, Türkmənistan, Qırğızıstan və Özbəkistan rəssamlarının (ümumilikdə 21 müəllif) Türk dünyasının tarixini, adət-ənənələrini və qədim abidələrini əks etdirən tabloları yer alıb.

Bundan başqa, Türkmənistan paytaxtında TÜRKSOY Yazıçılar Birliyinin toplantısı da keçirilib. Türk dünyası klassiklərin və müasir ədəbiyyat nümunələrinin çap olunması, görkəmli ədiblərin yubileylərinin keçirilməsi məsələləri müzakirə edilib.



Toplantıda çıxış edən TÜRKSOY-un baş katibi Sultan Raev deyib: "Türk dünyasının ədəbiyyatı bizim ortaq tariximizin güzgüsü olmaqla yanaşı, həm də gələcəyimizin aynasıdır. Biz ədəbi irsimizin təbliğini müasir dünyanın tələblərinə uyğun şəkildə davam etdirməliyik".

## Xronoqraf

# Tarixdə bu gün

## Olaylar, faktlar (21 – 24 oktyabr)



### 229 il əvvəl...

**24 oktyabr 1795-ci ildə** Polşanın (Reç Pospolita) 3-cü dəfə bölüşdürülməsinə dair Rusiya, Prussiya və Avstriya arasında "Peterburq sazişi" imzalanıb. Polşanın dövlət kimi mövcudluğuna son qoyulub. Polşanın bölüşdürülməsinə dair öncəki iki saziş 1772 və 1793-cü illərdə imzalanmışdı. Reç Pospolitanın tərkibinə daxil olan indiki Litva, Belarus və Ukraynanın bir hissəsi Rusiyanın nəzarətinə keçib.

### 219 il əvvəl...



**21 oktyabr 1805-ci ildə** İspaniya və Fransanın birləşmiş donanması ilə Böyük Britaniyanın dəniz qüvvələri arasında Trafalqar döyüşü (İspaniyanın Atlantik okeanı sahili, Trafalqar burnu) olub. İngilis admiralı Horatsio Nelsonun donanması ispan-fransız qüvvələrini darmadağın edib. Admiral Nelson döyüşdə həlak olub. Bu qalibiyyət sayəsində Britaniya dünya okeanında hökmranlığı ələ aldı.

### 107 il əvvəl...

**22 oktyabr 1917-ci ildə** Bakı Fəhlə və Əsgər Deputatları Sovetinə seçkilər keçirilib. 40 faiz səs toplayan "Müsavat" partiyası qələbə qazanıb, ikinci yeri eserlər – "inqilabçı sosialistlər" (30 faiz) tutublar. Üçüncü nəticə (16 faiz) göstərən Şaumyanın başçılıq etdiyi bolşeviklər (Rusiya K(b)P-nin Bakı komitəsi) seçkinin nəticələrini tanımadılar və Petroqradda 25 oktyabr (7 noyabr) üsyanından (Müvəqqəti hökumətin devrilməsi) sonra zorakılıqla Bakı Sovetində yerlərin çoxunu ələ keçirdilər.

### 95 il əvvəl...

**24 oktyabr 1929-cu ildə** Nyu-York Fond Birjasında ABŞ şirkətləri səhmlərinin sürətlə qiymətdən düşməsi ilə ölkə maliyyə böhranına yuvarlanıb. "Qara cümə axşamı" adı ilə tarixə düşən hadisə Amerikada "Böyük depressiya"nın başlanğıcı oldu.

### 79 il əvvəl...



**24 oktyabr 1945-ci ildə** BMT-nin Nizamnaməsi qüvvəyə minib, təşkilat rəsmən fəaliyyətə başlayıb. 1945-ci il iyunun 26-da San-Fransiskoda (ABŞ) keçirilən beynəlxalq konfransda qəbul olunan sənədə 40-dan çox ölkə (o cümlədən SSRİ, ABŞ, Britaniya) imza atmışdı və 29 ölkənin ratifikasiyasından sonra BMT Baş Assambleyasının 1-ci sessiyası işə başladı. Hazırda 193 ölkə BMT-nin üzvüdür.

### 68 il əvvəl...

**23 oktyabr 1956-cı ildə** Macarıstanda antisovet çıxışları (23 oktyabr – 4 noyabr) başlanıb. Aksiyaçılar Macarıstanın "Varşava bloku"ndan çıxmasını, sosialist inkişaf yolundan əl çəkməsini tələb edirdilər. Macarıstan KP-nin islahatçı lideri İmre Had hökumətin başçısı seçildi. Moskvanın təlimatı ilə partiyada Yanoş Kadarın başçılıq etdiyi mühafizəkarlar hökuməti tanımadı və kömək üçün Moskvaya müraciət etdilər. SSRİ və "Varşava bloku" ölkələrinin hərbi kontingenti Budapeştə yeridildi, "antiinqilabi qiyam" yatırıldı.

### 60 il əvvəl...

**24 oktyabr 1964-cü ildə** Britaniyanın Mərkəzi Afrikadakı müstəmləkəsi olan Şimali Rodeziya Zambiya adı altında müstəqilliyini elan edib.

### 37 il əvvəl...

**21 oktyabr 1987-ci ildə** Heydər Əliyev Sov.İKP MK-nın Baş katibi Mixail Qorbaçovun təzyiqi ilə SSRİ rəhbərliyindən – Siyasi Büro üzvlüyündən istefa verib. Ertəsi gün Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin 1-ci müavini vəzifəsindən də istefa verdi. Bundan qısa müddət sonra ermənilər Qarabağ avantürasına başladılar.

**Hazırladı: V.Orxan**

# "Şuşa" musiqili filmi beynəlxalq yayım platformasında




Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı, Heydər Əliyev Mərkəzi və Bakı Media Mərkəzinin dəstəyi ilə çəkilən "Şuşa" adlı film "Stigmart" musiqili yayım platformasında yerləşdirilib.

Beynəlxalq layihə olaraq "Altea Media" şirkəti tərəfindən çəkilən film Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərinin və klassik musiqi irsimizin dünyada təbliği məqsədi daşıyır.

Filmdə Şuşa ilə bağlı arxiv materialları və şəhərin müasir görüntüləri Xalq artisti Murad Hüseynovun pianoda Fikrət Əmirov, Qara Qarayev, Tofiq Quliyev, Adil Bəbirov kimi görkəmli bəstəkarların əsərlərinin ifası ilə müşayiət olunur. Eyni zamanda Qarabağ xalçaları və Xalq rəssamı Arif Hüseynov, gənc rəssamlar Leyla Əliyeva və Anar Hüseynzadənin əsərləri təqdim edilir.

Filmdə AzTV, Milli Arxiv İdarəsi və "Azərxalça" ASC tərəfindən təqdim edilmiş materiallardan istifadə olunub. "Şuşa" musiqili filminin məşhur musiqi kanalı "Mezzo TV"də də yayımlanması nəzərdə tutulur.

# Zelena-Qura Elvini alqışlayıb



Polşanın Zelena-Qura şəhər filarmoniyasının təşkil etdiyi ənənəvi Simli Alətlər Festivalının növbəti konsertində Azərbaycan da təmsil olunub.

Gənc olmasına baxmayaraq, indiyədək neçə-neçə böyük səhnəni fəth etmiş violin ifaçısı, Azərbaycanın Əməkdar artisti, beynəlxalq müsabiqələr qalibi və laureatı Elvin Xoca Qəniyev oktyabrın 18-də keçirilən konsertdə vokalçı Klaudiya Trzasko ilə birlikdə çıxış edib.

Zelena-Qura filarmoniyasının sosial şəbəkə hesabında yer alan məlumatda deyilir ki, Norbert Turkçinskinin dirijor pultu arxasında olduğu simfonik orkestrinin müşayiət etdiyi konsert əla keçib: "Biz Verdinin, Respiginin və Qriqin əsərlərini fantastik ifada dinlədik".

Elvin Xoca Qəniyev İtaliya bəstəkarı Ottorino Respiginin simfonik orkestr və violin üçün "Qreqorian konserti"ni, Norveç bəstəkarı Edvard Qriqin vokal, violin, xor və orkestr üçün bəstələdiyi "Per Günt" kamera-simfonik əsərindən I və II süitaları ifa edib.

# Moskvada 14-cü Rostropoviç festivalı keçiriləcək

## Açılışda Elçin Əzizov da oxuyacaq

Moskvada dünyaca məşhur musiqiçi, Azərbaycanın böyük dostu Mstislav Rostropoviçin xatirəsinə həsr olunmuş festival bu il 14-cü dəfə keçiriləcək. Moskva Hökuməti və M.L.Rostropoviç adına Mədəni və Humanitar Proqramlar Fondunun təşkilatçısı olduğu festivalın bədii rəhbəri maestronun qızı, Rusiya Federasiyasının Əməkdar incəsənət xadimi Olqa Rostropoviçdir.

2010-cu ildə təməli qoyulan festival musiqi dünyasında mühüm sənət hadisələrindən birinə çevrilib.

Noyabrın 4-dən 16-dək davam edəcək XIV Mstislav Rostropoviç Beynəlxalq Musiqi Festivalında dörd möhtəşəm konsert proqramı nəzərdə tutulub. Moskva Dövlət Konservatoriyasının Böyük salonunda keçiriləcək konsertlərdə (4, 10, 15, 16 noyabr) altı ölkəni təmsil edən musiqiçilər çıxış edəcəklər. Solistləri Y.F.Svetllanov adına Rusiya Dövlət Akademik Simfonik Orkestri, D.D.Şostakoviç adına Sankt-Peterburq Filarmoniyası Akademik simfonik orkestri və P.İ.Çaykovski adına Dövlət Akademik Böyük simfonik orkestri müşayiət edəcək.

Noyabrın 4-də opera qala-konsertində Azərbaycanın Xalq artisti, Rusiya Böyük Teatrının solisti bariton Elçin Əzizov səhnəni Rusiya, Yunanıstan və İtaliyanı təmsil edən vokalçılarla paylaşacaq. Onlar dirijor Cüzeppe Finsinin (İtaliya) idarə edəcəyi Svetlanov orkestrinin müşayiəti ilə C.Verdi, J.Bize, C.Puççini, P.İ.Çaykovski, N.A.Rimski-Korsakovun operalarından ariyalar oxuyacaqlar.

**Gülcahan**

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin kollektivi idarənin rəisi İbrahim Əliyevə bacısı

**Həsənova Həlimə Müseyib qızının**

vəfatı ilə bağlı dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin.**

***

"Mədəniyyət" qəzeti redaksiyasının kollektivi Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin rəisi İbrahim Əliyevə bacısı

**Həsənova Həlimə Müseyib qızının**

vəfatı ilə bağlı dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin.**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiymәti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5086. **Sifariş:** 2466
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641